

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 22 (813) ■ 8 iyun 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Dövlətimizin başçısı Almaniya Federativ Respublikasına işgüzar səfər edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniya Federativ Respublikasına işgüzar səfər edib. Prezident İlham Əliyev həmin gün Berlində «Airbus Group» şirkətinin icraçı vitse-prezidenti Jan Pier Talamoni ilə görüşüb. Görüşdə Azərbaycan ilə «Airbus Group» şirkəti arasında səmərəli əməkdaşlığın olduğu bildirilib. Müxtəlif sahələrdə, xüsusilə «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Airbus Group» arasında, o cümlədən kosmik sənaye sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Berlində Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri Hans-Eberhard Şlayer və qurumun üzvləri ilə görüşüb. Görüşdə Azərbaycan ilə Almaniya arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. İlham Əliyev Alman-Azərbaycan Forumunun idarə heyətinin üzvlərini aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda cəbhə xəttində törətdiyi təxribatlar barədə məlumatlandırıb.

Prezidenti İlham Əliyev iyunun 6-da Berlində Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger ilə görüşüb. Görüşdə Azərbaycan ilə Münhen Təhlükəsizlik Konfransı arasında yaxşı əməkdaşlığın olduğu bildirilib. Ölkəmizin Konfransın işində hər zaman fəal olduğu vurğulanıb. Azərbaycanın dünyada təhlükəsizliyin təmin olunması işinə verdiyi töhfənin əhəmiyyəti qeyd edilib. Söhbət zamanı aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qoşunların təmas xəttində törətdiyi təxribat, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ətrafında geniş fikir mübadiləsi aparılıb.

İyunun 7-də Berlində Azərbaycan-Almaniya İqtisadi Forumunun açılışı olub. Prezident İlham Əliyev Forum açılışında iştirak edib. Almaniya Federativ Respublikasının vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel Azərbaycan Prezidentini salamlayaraq bu Forumun keçirilməsindən məmnun olduğunu bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən narahatlığını ifadə edərək tərəflərin Vyana görüşündən sonra nizamlama ilə bağlı nikbinliyin yarandığını söyləyib.

Forumda çıxış edən Prezident İlham Əliyev Almaniya ilə Azərbaycanın yaxşı tərəfdaşlar olduqlarını, ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını bildirib. Azərbaycan iqtisadiyyatının inkişafı üçün təhlükəsizlik və sabitliyin vacib olduğunu deyən dövlətimizin başçısı Dağlıq Qarabağda qoşunların təmas xəttində baş verən hadisələrə diqqəti cəlb edib. Vurğulayıb ki, atəşkəs olduqca kövrəkdir, Ermənistan vəziyyətə nəzarət edə bilmir və status-kvo bu cür davam edə bilməz. İşğal olunmuş ərazilərdən bütün işğalçı qüvvələr çıxarılmalıdır.

Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinin mühüm qolu olan TAP-ın inşasının uğurla davam etdiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun bu il istifadəyə veriləcəyinə ümidvar olduğunu və Bakıda ən böyük dəniz limanının tikintisinin aparıldığını, bununla da ölkəmizin gələcəkdə logistik mərkəzə çevriləcəyini söyləyib. «Biz Azərbaycanda daha çox alman şirkətlərini görmək istəyirik», - deyən dövlətimizin başçısı ölkəmizdə əməkdaşlıq üçün mühüm sahələrin olduğunu vurğulayıb, bu Forumun əlaqələrin daha da möhkəmlənəcəyinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel ilə görüşüb. Görüşdə Azərbaycan-Almaniya ikitərəfli əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə edilib, böyük iqtisadi layihələrin həyata keçirilməsi, kənd təsərrüfatı, əczaçılıq, təhsil, nəqliyyat, enerji, su təsərrüfatı, torpaqların təmizlənməsi, kosmik sənaye və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

# Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın Azərbaycana rəsmi səfəri

İyunun 3-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım Azərbaycan Respublikasına rəsmi səfər edib. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyənin Baş naziri Binəli Yıldırımı və xanımı Semiha Yıldırımı qarşılayıblar. Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Binəli Yıldırıma, Türkiyə nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olunub. Sonra Prezident İlham Əliyevin və Baş nazir Binəli Yıldırımın təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iqtisadi əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə geniş tərkibdə görüşü olub. Dövlətimizin başçısı bildirib ki, bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Bizim istəyimiz, məqsədimiz Türkiyə-Azərbaycan birliyini daha da güclü etmək və möhkəmləndirməkdir.

Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım isə bildirib ki, səfər zamanı dost və qardaş Azərbaycanla Türkiyə arasında enerji layihələri, o cümlədən «Cənub Qaz Dəhlizi», TAP, TANAP layihələrinin həyata keçirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım mətbuata birgə bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bəyanatında bildirib ki, Türkiyə-Azərbaycan əlaqələri bu gün ən yüksək zirvədədir. «Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapmaq mümkün deyil. Bütün sahələrdə əməkdaşlıq, işbirliyi genişlənir, güclənir. Biz daim bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstəririk. Bu yaxınlarda Türkiyədə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsi ilə bağlı çox önəmli qərar qəbul edilmişdir, Kontakt Qrupu yaradılmışdır. Türkiyənin bu qərarların qəbul olunmasında çox böyük rolu olmuşdur. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycanın yanındadır və biz bu dəstəyə görə minnətdarıq».

Azərbaycan Prezidenti qeyd edib ki, beynəlxalq birlik tərəfindən tanınan ərazimizin 20 faizi 20 ildən çoxdur ki, işğal altındadır. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı müvafiq qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmır. Azərbaycanın öz prinsipial mövqeyini gücləndirdiyini, siyasi, iqtisadi, hərbi üstünlük əldə etdiyini və aprel döyüşlərinin bunu bir daha göstərdiyini bəyan edib: «Ermənistanın hərbi təxribatı cavabsız qalmayıb. Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirib. Əks-hücum əməliyyatı nəticəsində 20 kvadratkilometrdən çox ərazi işğalçılardan təmizləndi və bundan bir neçə dəfə böyük ərazi də Azərbaycan Ordusunun nəzarətinə keçdi. Biz əlbəttə, çalışırıq və çalışacağıq ki, bu məsələ sülh, danışıqlar yolu ilə həll edilsin, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqlarımızdan erməni silahlı birləşmələrinin çıxarılması deməkdir».

Azərbaycanın bütün məsələlərdə Türkiyəni dəstəklədiyini və yanında olduğunu vurğulayan Prezident İlham Əliyev bəzi hallarda qardaş ölkəyə qarşı edilən ədalətsizliklərə Türkiyə qədər heyifsiləndiyini və öz sözünü dediyini diqqətə çatdırıb: «Almaniya parlamentinin qəbul etdiyi ədalətsiz qərar, əlbəttə ki, siyasi sifarişdir. Çünki bunu hər kəs yaxşı bilir ki, bu, yalan üzərində, böyük erməni yalanı üzərində qəbul edilib. Nə üçün bu, məhz dünən qəbul edilib?! Təbii ki, bunun siyasi tərəfləri var və əsas rol oynayır. Yəqin ki, Türkiyəni nəyəsə məcbur etmək istəyirlər. Yəqin ki, Türkiyənin müstəqil siyasətinə təzyiq və təsir etmək istəyirlər. Budur, bu ədalətsizliyin təməlində dayanan amillər. «Erməni məsələsi» sadəcə olaraq bir bəhanədir. «Erməni məsələsi» yenə də böyük dövlətlərin əlində alətə çevrilib».

Türkiyənin Baş naziri bildirib ki, Azərbaycan torpaqlarının 20 faizini illərdir işğal edən ermənilərin beynəlxalq hüququ kobud şəkildə pozmalarına artıq «yox» deməyin vaxtı çatıb. «Bu məsələni zamana buraxaraq unutdurmaq əsla mümkün deyil. Bir sıra beynəlxalq təşkilatlar, ATƏT, Minsk qrupu toplanıb yenidən dağılışırlar. İndi artıq vaxtı uzatmaq deyil, həll yolu tapmaq zamanıdır və biz Türkiyə olaraq bunu yaxından müşahidə edirik. Onlara sərf edən məsələdə tez-tez toplanıb qərar qəbul edənlər, Azərbaycanın, Türkiyənin məsələsinə gələndə hərəkət etmək istəmirlər. Bu, ikili standartdır və əsla qəbul edilə bilməz. Nə vaxt ki, Azərbaycan torpaqlarının 20 faizi geri qaytarılsa, Azərbaycanın suverenliyi tam təmin edilsə, o zaman bu məsələ həll edilmiş olacaq. Bu baxımdan bu məsələni beynəlxalq ictimaiyyətin daha ciddi ələ almasının və ikili standartdan əl çəkməsinin vaxtı çoxdan yetişib».

# Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev Qurultayın açılış mərasimində iştirak edib*

İyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayın açılış mərasimində iştirak edib. Tədbirdə nitq söyləyən dövlətimizin başçısı qurultayın keçirilməsini mühüm hadisə adlandırıb, son illərdə ölkəmizdə diaspor təşkilatlarının təşkilatlanma, formalaşma prosesinin daha da geniş vüsət aldığını qeyd edib. Bildirib ki, son illərdə onların sayı əhəmiyyətli dərəcədə artıb və bir neçə il əvvəl dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.




Dövlətimizin başçısı dünyada yaşayan azərbaycanlılara öz tarixi Vətənləri ilə əlaqələrini heç vaxt kəsməməyi, bir-birləri ilə əlaqədə olmağı tövsiyə edib. «Hazırda xaricdə yaşayan azərbaycanlıların sayı milyonlarla ölçülür. Xaricdə bizim 462 diaspor təşkilatımız var. Bu, özlüyündə onu göstərir ki, azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var. Əlbəttə, bu təşkilatlar arasında koordinasiya işi aparılmalıdır, birlik, həmrəylik olmalıdır. Bəzi hallarda bizim diaspor təşkilatlarımız bir-biri ilə rəqabət aparırlar. Əgər bu, sağlam rəqabətdirsə, mən bunu ancaq alqışlaya bilərəm. Bu rəqabət ümumi işimizə xidmət etməlidir. Biz ölkə daxilində də, xaricdə də birlik nümayiş etdirməliyik və bizim gücümüz birliyimizdədir. Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq».

Prezident İlham Əliyev dövlət orqanları , eyni zamanda xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimizin diaspor təşkilatları ilə əlaqələrin güclənməsində fəal olmağı da tövsiyə edib. Dövlət, hökumət, qanunvericilik orqanlarında Azərbaycan diaspor nümayəndələrinin sayı daha da çox olmasının vacibliyini bildirib. «Əfsuslar olsun ki, azərbaycanlılar müxtəlif dövlət və qanunvericilik orqanlarında lazımi səviyyədə təmsil olunmurlar. Bu təmsilçilik onların sayına uyğun deyil. Ona görə bu istiqamətdə də iş aparılmalıdır. Əlbəttə ki, Azərbaycan dövləti bu işə heç cür müdaxilə edə bilməz və etməməlidir. Bu vəzifəni ancaq diaspor təşkilatları özləri həll etməlidirlər». Dövlətimizin başçısı həmçinin müxtəlif ölkələrdə böyük biznes imkanlarına malik olan azərbaycanlıları ölkəmizə sərmayə qoymağa çağırıb.

Dünyada Azərbaycana qarşı yalan və böhtan kampaniyasının aparılmasına da diqqət çəkən dövlətimizin başçısı respublikamızı ləkələyən, Azərbaycan reallıqlarını təhrif edən, böhtan xarakterli yazıların böyük əksəriyyətinin arxasında ermənilərin göründüyünü xatırladıb. Qeyd edib ki, bu sahədə işlər daha da təkmilləşdirilməli, ilk növbədə media ilə iş aparılmalıdır. Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün diaspor təşkilatları bu məsələdə fəal olmalı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı informasiya təminatında mühüm rol oynamalıdırlar. Onlar yaşadıqları ölkələrdə internet saytları açmalı və həmin ölkələrin ictimaiyyəti informasiyalarla təmin etməlidirlər.

Prezident İlham Əliyev aprel döyüşləri barədə də danışmış, Ermənistan rəhbərliyinin bu mövzu ilə bağlı öz xalqını və dünya ictimaiyyətini aldatmağa çalışdığını qeyd etmişdir. «Ermənistan prezidenti bu yaxınlarda Avrasiya İqtisadi İttifaqının zirvə görüşündə ifadə edib. Onun sözləri təxminən bundan ibarət idi ki, Azərbaycan apreldə bu əməlləri edib, «Dağlıq Qarabağ ordusu» vəziyyəti nəzarətə alıb və Azərbaycan Rusiyadan xahiş edib ki, döyüşlər dayandırılsın. Bax, bu cümlədə bir adam dörd dəfə yalan danışıb... Mən bir cümlədə dörd dəfə yalan danışan ikinci prezident tanımıram. Bu, mütləq «Ginnesin rekordlar kitabı»na salınmalıdır, amma antirekord kimi. Heç olmasa, Ermənistan dünyada hansısa bir sahədə birinciliyi əldə edər».

Dövlətimizin başçısı aprel döyüşlərində bir daha Azərbaycanın qüdrətinin, Ordumuzun gücünün nümayiş olunduğunu xatırladaraq bütün dünya azərbaycanlıları adından qəhrəman hərbçilərimizi salamlayıb.

# «Baltika-Bakı» şirkətinin nümayəndələri ilə görüş



İyun ayının 3-də Vergilər Nazirliyində «Baltika-Bakı» MMC-nin rəhbərliyi ilə görüş keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev ölkə başçısı İlham Əliyev tərəfindən qeyri-neft sektorunun davamlı inkişafı istiqamətində görülən işlər, müşahidə olunan iqtisadi çətinliklər dövründə Azərbaycanın büdcə-vergi siyasətində və vergi sistemində aparılan islahatların əhəmiyyəti barədə qonaqlara ətraflı məlumat verib.

Bildirilib ki, son dövrlərdə vergi sistemində həyata keçirilən struktur və inzibatçılıq sahəsindəki islahatlar, həmçinin bu ilin əvvəlindən aksiz markası ilə markalanmalı olan spirtli içki və tütün məmulatlarının nağdsız dövriyyəsinin həyata keçirilməsi ilə bağlı vergi qanunvericiliyinə edilmiş dəyişikliklər vergi yığımları üzrə proqnozların tam həcmdə icra edilməsinə yönəlik atılmış addımlardır.

Görüşdə «Baltika-Bakı» şirkətinin Azərbaycandakı fəaliyyəti, 2015-2016-cı illərdə şirkət tərəfindən dövlət büdcəsinə ödənilmiş vergilər, biznesin gələcəkdə də uğurla inkişaf etməsi üçün görülməli olan işlər, müəssisənin pivə istehsalında rolu, aksiz siyasəti, aksiz markası ilə markalanmalı olan malların nağdsız ödəmə yolu ilə satışı ilə bağlı qanunvericilikdə edilmiş dəyişikliklər və s. məsələlər müzakirə olunub.

«Baltika-Bakı» və «Carlsberg Kazakhstan»nın baş direktoru Viktor Semak səmimi qəbula görə təşəkkürünü və Azərbaycanda uzun illərdən bəri göstərdikləri fəaliyyətdən məmnun olduqlarını bildirib. Qeyd olunub ki, şirkət ölkədə biznesin inkişafı üçün yaradılan əlverişli mühitdən daim yararlanıb, öz fəaliyyətini istehsalın və satışın genişləndirilməsi istiqamətində qurub və nümunəvi vergi ödəyicisi kimi daim öz vergilərini vaxtlı-vaxtında dövlət büdcəsinə ödəyib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Beynəlxalq praktik konfrans keçirilmişdir




Belarus Respublikasının paytaxtı Minsk şəhərində Belarus Respublikasının Vergilər və yığımlar Nazirliyinin dəvəti və təşkilatçılığı ilə «ƏDV-nin elektron inzibatçılığı, transfer qiymətəmələgəlməsinə nəzarət: zamanın tələbi» mövzusunda beynəlxalq praktik konfrans keçirilib. Konfransın məqsədi ƏDV üzrə elektron hesab-fakturaların fəaliyyət mexanizmi, eləcə də transfert qiymətəmələgəlmə üzrə vergi nəzarətinin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi olub.

Konfransda vergilər nazirinin müavini İlkin Vəliyev və Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarənin Büdcə proqnozlarının icrasına nəzarət idarəsinin rəisi Nəsib İsgəndərov də iştirak ediblər. Nazirinin müavini İlkin Vəliyev tədbirin plenar iclas hissəsində «Azərbaycan Respublikasında həyata keçirilən əməliyyatlar üzrə qiymətlərə vergi nəzarəti sistemində elektron hesab-fakturalar» mövzusunda çıxış edib.

Daha sonra konfrans 2 seksiya üzrə - «Transfert qiymətəmələgəməsi: inkişafın beynəlxalq və milli tendensiyası, tətbiq təcrübəsi» və «ƏDV üzrə elektron inzibatçılıq: beynəlxalq təcrübə və milli səviyyədə yeniliklər» üzrə fəaliyyətini davam etdirib.

# Uğurlu biznesin sirri

«Forbes» jurnalının dəstəyi ilə aparılan araşdırmalara görə, dünyada işləmək qabiliyyəti olan əhalinin 94%-i öz biznesini qurmaq barədə düşünsə də, onların yalnız 6%-i bu işi həyata keçirir. Maraqlı məqam burasındadır ki, yeni açılan bizneslərin cəmi 15%-i rentabelli olur və 5 ildən çox fəaliyyət göstərir. Bəs uğurlu biznesin sirri nədədir?! Necə olur ki, kimlərsə öz biznesini quraraq milyonlara sahib olur, kimlərsə böyük maddi (həmçinin mənəvi) ziyanla bu işdən yan keçir. Uğurlu biznes üçün hansı meyarlar olmalıdır?

«CRM Group» Konsaltinq-biznes xidmətlər şirkəti Azərbaycanda 2009-cu ildən fəaliyyət göstərir. Şirkətin biznesin inkişafı üzrə meneceri Çinarə Əliyevanın sözlərinə görə, şirkətin mütəxəssisləri biznes və marketinq üzrə məsləhətlər əsasında həm nəzəri, həm maliyyə baxımından müxtəlif sferalarda çalışırlar. «CRM Group» Azərbaycanda biznes həlləri təqdim edir. CRM-in açıqlaması «Customer Relationship Management», yəni müştəri əlaqələrinin idarə edilməsi deməkdir.

Müştəri ilə əlaqəni necə qurmaq lazımdır? Azərbaycanda hazırda bu sahədə problem nədədir? Çoxları məlumat bazasının düzgün qurulmaması ucbatından risklərlə üzləşir. «Biz çox böyük şirkətlərlə görüşmüşük. Bu siyahıya həm banklar, həm Azərbaycanın aparıcı şirkətlərini salmaq olar. Bu şirkətlərin məlumat bazasına baxdıqda onların böyük problemləri olduğu görünür. Ya xidmətlər, ya da hansısa məhsullar satılarkən münasibət müştəriyönümlü qurulmalıdır. Biz marketinq sistemlərinə istiqamət veririk, dünya praktikasında alınmış analoji prosesləri göstəririk və proseslərdə insan faktorunu azaldırıq. Şirkətlərdə insan faktoru böyük önəm daşıyır, insanın səhv etməməsi mümkün deyil».

Təkcə Azərbaycanda deyil, bütün dünyada böhran zamanı çoxları işi ya dayandırmaq, ya da ümumiyyətlə heç işə başlamamaq barədə düşünürlər: «Biz bir şirkət olaraq bunun tamamilə əleyhinəyik. Əslində, böhran dövrü işi qurmağın əlverişli vaxtıdır. Çünki böhran zamanı bir çox rəqiblər zəifləyir və meydanı tərk edir. Bu yolda biz ingilislərin Nişi strategiyasına əsaslanırıq. Məsələn, siz istər biznes məsləhətləri olsun, istər marketinq - bir seqmenti seçirsiniz, o seqmentlə özünüzü ən yüksək pilləyə çatdırırsınız».

## Uğurlu biznes əvvəlcədən düzgün qurulmuş biznes planının olmasını tələb edir

Uğurlu biznes isə əvvəlcədən düzgün qurulmuş biznes planının olmasını tələb edir. «Baxırsan ki, bir şirkət artıq 5-10 ildir fəaliyyətdədir, amma düzgün iş planı yoxdur. Bizim strategiyamızda illər ərzində biznes planı yazılır. Orada təqdim edilən məhsulun, xidmətlərin çeşidinin necə qurulması, necə təqdim edilməsi müzakirə olunur. Sonuncu addım taktiki plandır. Bu da özlüyündə marketinq planıdır».

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26, (055) 201 99 26,
(+99412) 403 87 90, (050) 254 25 52,
(+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

maariflandirma

# Vergiləri ödəmək hər kəsin borcudur

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə vergiləri vaxtında ödəmək və vergi borcları barədə məlumatı daha asan formada əldə etmək məqsədilə müxtəlif alternativlər təklif olunur. Bu da imkan verir ki, vergi ödəyicisi Çağrı Mərkəzinə zəng etmək, İnternet Vergi İdarəsinə daxil olmaq, yaxud SMS göndərməklə vergi borcları barədə məlumatı daha asan şəkildə əldə etsin. Vergi borclarını öyrəndikdən sonra vergiləri daha asan şəkildə, vaxta qənaət edərək ödəmələri üçün vergi ödəyicilərinin istifadəsinə bir sıra xidmətlər də verilib. Belə ki, vergi ödəyicisi Vergilər Nazirliyinin İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq» alt bölməsi, Hökumət Ödəniş Portalı və «EkspressPay» ödəniş terminalları vasitəsilə də vergiləri ödəyə bilər.

İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq» alt bölməsi vasitəsilə verginin ödənilməsi üçün vergi ödəyicisi www.e-taxes.gov.az saytına daxil olmalı və «Giriş» düyməsini sıxdıqdan sonra açılan pəncərədə istifadəçi kodu, parol, şifrəni daxil etməlidir. «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçərək daxil olduqdan sonra istifadəçi pəncərənin aşağı sol tərəfində «Onlayn ödəmə» düyməsini sıxmalıdır. Daha sonra açılan pəncərədə müvafiq siyahıdan təsnifat kodunu seçərək ödəniləcək məbləği daxil etməli, «Ödə» düyməsini sıxdıqdan sonra ödəniş kartının tələb olunan məlumatlarını daxil edərək «Təsdiq» düyməsini sıxmalıdır. Bununla da «Onlayn ödəmə» əməliyyatı həyata keçirilmiş olur. «Onlayn ödəmə» düyməsi sıxıldıqdan sonra sistem tərəfindən ekrana həmin tarixə olan vergi borcu barədə məlumat çıxır. Vergi və rüsumların elektron formada ödənilməsi zamanı ödəniş kartının məlumatları yanlış olduqda, hesabda vəsait olmadıqda sistem tərəfindən bu barədə interfeys vasitəsilə ödəyiciyə müvafiq xəbərdarlıq edilir.

Xidmətin həyata keçirilməsi nəticəsində vəsait kart sahibinin bank hesabından silinərək müvafiq xəzinədarlıq orqanında olan büdcə hesabına köçürülür. Aparılmış hər bir əməliyyat üzrə real vaxt rejimində elektron formada 30-60 saniyə ərzində Vergilər Nazirliyinə məlumat ötürülür.

Hökumət Ödəniş Portalı vasitəsilə vergi və rüsumların ödənilməsi üçün vergi ödəyicisi www.gpp.az saytına daxil olaraq «Büdcə ödənişləri» hissəsindən «Vergilər Nazirliyi» bölməsini seçməlidir. Açılan pəncərədə istifadəçi özünə məxsus VÖEN-i və təhlükəsizlik kodunu daxil etdikdən sonra «Axtar» düyməsini sıxmalıdır. Açılan növbəti pəncərədəki «Ödəniş növləri»ndən ödəniləcək verginin növü və fəaliyyət növünə uyğun təsnifat kodu seçilərək «Əlavə et» düyməsi sıxılır. Daha sonra «Ödəniş məbləği»ni müvafiq xanaya daxil edib «Ödəniş» düyməsini sıxmaq lazımdır. Bundan sonra açılan pəncərədə ödəniş kartının tələb olunan məlumatları müvafiq xanaya daxil edilərək «Ödəmək» düyməsi, sonda isə əməliyyatı təsdiqləmək üçün «Təsdiq» düyməsi sıxıldıqda «Onlayn ödəmə» əməliyyatı həyata keçirilmiş olur. Sonda ödəmənin nəticəsi barədə məlumatı çap etmək və ya həmin məlumatları e-mailə göndərmək mümkündür. Hər üç halda kart sahibindən aparılmış hər bir əməliyyata görə minimum 40 qəpik olmaqla ödənilmiş məbləğin 0,15 faizi həcmində bank idarəsinin xeyrinə xidmət haqqı tutulur.

«EkspressPay» ödəniş terminalları vasitəsilə də vergi və rüsumları rahat şəkildə ödəmək mümkündür. Vergi ödəyicisi terminalın menyusunda «Hökumət ödənişləri» bölməsinə daxil olaraq «Vergilər Nazirliyi» düyməsini seçməli, daha sonra VÖEN-i daxil edib «İRƏLİ» düyməsini sıxmalıdır. Açılan pəncərədə siyahıdakı ödəniləcək vergi növünün üzərinə vurub alt siyahıdan fəaliyyət növünə uyğun xana seçildikdən sonra nağd pulu qurğuya daxil edib «Ödəmək» düyməsini sıxmaq lazımdır. Bununla da «Nağd ödəmə» əməliyyatı həyata keçirilmiş olur.




**A.NƏBİYEVA**

# Vergi yoxlamalarının sayı azaldılıb



*Vergilər Nazirliyinin Vergi Auditi və operativ vergi nəzarəti idarəsinin rəisi Toğrul Quliyevin «Vergilər» qəzetinə müsahibəsi.*

***- Məlum olduğu kimi ölkə prezidenti cənab İlham Əliyev ötən ilin sonlarında sahibkarlıq subyektlərinin iqtisadi fəallığının artırılması məqsədilə yoxlamaların sayının azaldılması barədə sərəncam verib. Audit və operativ vergi nəzarəti tədbirlərinin Vergilər Nazirliyinin birbaşa funksiyalarından biri olduğunu nəzərə alsaq, ötən dövrdə bu sahədə mövcud vəziyyət barədə məlumat almaq maraqlı olardı?***

- Hazırda respublikada aparılan vergi siyasəti və bu siyasət nəticəsində həyata keçirilən islahatların məqsədi sahibkarlar tərəfindən vergi qanunvericiliyinə əməl etməklə vergilərin vaxtında ödənilməsini təmin etməkdən ibarətdir. Bununla yanaşı, əsas məqsədlərdən biri də vergi ödəyicilərində, xüsusilə də kiçik sahibkarlıq subyektlərində itkinin qarşısının alınması üçün maliyyə sanksiyaları və cərimələrin tətbiqinin məhdudlaşdırılmasıdır. Bu da nəticə etibarilə sahibkarlıq subyektlərinin iqtisadi fəallığının artırılmasına kömək etməlidir.

Məlum olduğu kimi, ötən ilin sonlarından başlayaraq, ölkə başçısının müvafiq fərmanına əsasən, dövlət qurumlarının sahibkarlıq subyektlərində apardığı yoxlamalar, vergi yoxlamaları istisna olmaqla dayandırılıb. Həmin fərman vergi yoxlamalarına şamil olunmasa da, Vergilər Nazirliyinin kollegiya iclasının qərarı ilə kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi də müvəqqəti olaraq dayandırılıb. Beləliklə, ölkədə sahibkarlığın inkişafı, sahibkarlıq subyektlərinin öz fəaliyyətini yeni iqtisadi şəraitə uzlaşdırılması üçün münbit şərait yaranıb.

Bununla belə, yaddan çıxarmaq lazım deyil ki, vergilərin ödənilməsi hər kəsin Konstitusiyada təsbit olunmuş vəzifəsidir və bu baxımdan sahibkarlıq subyektlərinin öz vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməsinə vergi nəzarəti təmin olunur. Vergilər Nazirliyi sahibkarlıq subyektlərinin fəaliyyətinə distant nəzarət sistemlərinə malikdir və kiçik sahibkarlıq subyektlərində yoxlamaların dayandırılmasına baxmayaraq, operativ vəziyyətə nəzarət edilir.

Digər vergi ödəyicilərinə gəlincə, Vergilər Nazirliyi tərəfindən təyin edilən bütün yoxlamalar risk meyarlarına əsaslanır, yoxlamalar yalnız ciddi nəticələr gözlənilən vergi ödəyicilərində aparılır. Ümumiyyətlə, vergi orqanlarında tətbiq olunan informasiya texnologiyaları vergidən yayınma risklərinin səviyyəsini və hüquqpozuntularının mövcudluğu faktlarını müəyyən etməyə, belə faktlar dəqiq araşdırıldıqdan sonra vergi yoxlamalarının təyin edilməsi barədə qərarın qəbul edilməsinə imkan verir.

***- Ötən dövr ərzində aparılan səyyar vergi yoxlamalarının və ümumiyyətlə vergi nəzarəti tədbirlərinin sayında nə qədər azalma müşahidə olunur?***

- 2015-ci ilin oktyabr ayının 1-nə olan tarixə səyyar vergi yoxlaması üzrə açılmış qərarların sayı 4704 olduğu halda, 2016-cı ilin iyunun 1-i tarixinə onların sayı 2034 olub ki, bu da səyyar vergi yoxlaması qərarlarının sayının təxminən 2,3 dəfə azalması deməkdir. 2016-cı ilin yanvar-may ayları ərzində 2509 səyyar vergi yoxlaması başa çatıb ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2219 ədəd və ya 46,9% az olub.

2015-ci ilin yanvar-may ayları ərzində 36066 vergi ödəyicisi üzrə vergi nəzarəti tədbiri keçirilərək 38190 akt tərtib edildiyi halda, 2016-cı ilin eyni dövrü üzrə 4242 vergi ödəyicisi üzrə vergi nəzarəti tədbiri keçirilərək 4743 akt tərtib edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə nəzarət tədbirləri ilə əhatə olunmuş vergi ödəyicilərinin sayının 8,5 dəfə azalması deməkdir.

Operativ vergi nəzarəti tədbirləri zamanı keçən ilin yanvar-may aylarında tətbiq edilmiş inzibati cərimə və maliyyə sanksiyalarının məbləği 10 milyon 963,6 min manat olduğu halda, bu ilin cari dövrü ərzində bu göstərici cəmi 387,3 min manat təşkil edib. Operativ vergi nəzarəti tədbirləri zamanı aşkarlanmış 1835 hal üzrə vergi ödəyicilərinin vergi qanunvericiliyinin pozulması halları üzrə məsuliyyətdən imtina qərarları çıxarılıb ki, bu da həmin vergi ödəyicilərinin maliyyə itkilərinə məruz qalmamasına imkan verib.

***- Vergilər Nazirliyinin son dövrlərdə həyata keçirdiyi nəzarət tədbirləri zamanı bir sıra müəssisələrdə qanunvericiliyin pozulması hallarının aşkarlandığı barədə məlumat verilmişdi. Hansı növ fəaliyyətlə məşğul olan vergi ödəyicilərində belə hallara daha çox rast gəlinir və bunlar hansı qəbildən olan qanun pozuntularıdır?***

- Vergilər Nazirliyi vergilərin ödənilməsində könüllülük səviyyəsinin yüksəldilməsi üçün məlumatlandırma və təbliğat işlərinin gücləndirilməsinə xüsusi diqqət yetirir. Bu məqsədlə xidmət mərkəzlərinin sayı artırılır, vergi ödəyiciləri ilə silsilə görüşlər keçirilir. Vergi qanunvericiliyinə əməl edilməsi ilə bağlı intizamsız vergi ödəyicilərinə xəbərdarlıq bildirişləri təqdim olunur, vergilərin ödənilməsi və yaranmış sualların birbaşa cavablandırılması üçün «Açıq qapı» günləri və mətbuat konfransları təşkil olunur.

Lakin, bütün bunlara baxmayaraq hələ də bir sıra sahələrdə, xüsusilə ticarət və iaşə, habelə müəyyən qədər istehsal sahələrində vergidən yayınma halları hələ də çoxdur. Vergilər Nazirliyi tərəfindən proqram təminatı vasitəsilə aparılmış təhlillər, mənbəyi məlum olan məlumatlar və sahələrə təhkim olunmuş vergi əməkdaşları tərəfindən aparılmış müşahidələr zamanı müəyyən edilmiş riskli vergi ödəyiciləri üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinin tələblərinin ciddi şəkildə pozulduğu aşkar edilməkdədir. Xüsusilə də, hazırda yoxlamaların sayının azaldılmasından sui-istifadə edərək vergidən yayınma hallarına yol verilir.

Cari ilin may ayında aparılmış vergi nəzarəti tədbirləri zamanı 6 vergi ödəyicisi tərəfindən 118 nəfərin əmək müqavilələri hüquqi qüvvəyə minmədən muzdlu işə cəlb olunduğu aşkar edilib, bu hallar Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olduğu üçün toplanmış sənədlər aidiyyəti üzrə göndərilib.

Bundan əlavə, aksizli malların istehsalı və satışı ilə məşğul olma fəaliyyəti üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı 21,9 min manat məbləğində 2,2 min ədəd saxta aksizli mallar, 37,7 min manat məbləğində 8,6 min ədəd aksiz markası olmayan malların satışı halları və aksizli malların satış məqsədi ilə nağd qaydada alınmasına görə 146,2 min manatlıq 22,6 min ədəd mal aşkar edilib. Eyni zamanda, kustar üsulu ilə spirtli içki istehsal edən 2 şəxs müəyyən edilərək, bu hallar qanuna müvafiq qaydada rəsmiləşdirilib və sənədlər cinayət işinin başlanılması üçün aidiyyəti üzrə göndərilib.

Keçirilmiş operativ vergi nəzarəti tədbirləri zamanı 82 halda qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi halları aşkar edilərək İnzibati Xətalar Məcəlləsinə əsasən protokollar tərtib edilib və məhkəmələrə göndərilib.

Keçirilən vergi nəzarəti tədbirləri əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması vəziyyətinin də qənaətbəxş olmadığını göstərir. Vergi orqanları tərəfindən əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması üzrə keçirilən vergi nəzarəti tədbirləri zamanı nöqsan aşkar edilməyən hallar demək olar ki, yoxdur. Bu sahədə riskli hesab edilmiş 257 vergi ödəyiciləri üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı qanun pozuntuları aşkar edilib və aparılmış xronometraj metodu ilə müşahidələr zamanı dövriyyənin orta hesabla 4 dəfə azaldıldığı müəyyən edilib.

Ümumiyyətlə, sahibkarlıq subyektlərinin vergi yoxlamaları və ya vergi nəzarəti tədbirləri zamanı maliyyə sanksiyalarına məruz qalması əsas etibarilə onlar tərəfindən gəlir və xərclərinin uçotunun aparılmaması, pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması nəticəsində baş verir.

***- Vergilər Nazirliyi tərəfindən qanunvericiliyin tələblərinə əməl etməyən riskli vergi ödəyicilərinin müəyyənləşdirilməsi üçün hansı tədbirlərin görülməsi nəzərdə tutulur? İntizamsız vergi ödəyicilərinə nə demək istəyərdiniz?***

- Bildirmək istəyirəm ki, vergidən yayınan və ya qanunvericiliyin tələblərinə əməl etməyən riskli vergi ödəyicilərinin müəyyənləşdirilməsi üçün Vergilər Nazirliyi tərəfindən hazırlanmış yeni proqram təminatı yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bu yeni proqram təminatı vasitəsi ilə vergidən yayınan vergi ödəyiciləri müəyyənləşdirilərkən avtomatik olaraq vergi nəzarətinin növü də seçiləcəkdir. Bu yeni metod vergi ödəyicilərinə təyin ediləcək yoxlamaların tam əsaslandırılmasına, vergi orqanlarının inzibati və insan resurslarından daha səmərəli istifadə olunmasına, vaxt itkisinin qarşısının alınmasına kömək etməklə yanaşı vergidən yayınan vergi ödəyicilərinin vaxtında aşkar edilməsinə imkan verəcəkdir.

Dövlət sahibkarlar üçün daha əlverişli biznes mühiti yaratmaq üçün nə lazımdırsa edir. Lakin sahibkarlar da, öz növbələrində, qanunvericiliyin tələblərinə əməl etməli, gəlir və xərclərin uçotunu düzgün aparmalı, vergiləri dövlət büdcəsinə vaxtında və tam həcmdə ödəməlidirlər. Bu, hər bir vergi ödəyicisinin Konstitusiya ilə müəyyən edilmiş vəzifəsidir və hamı bu vəzifəni yerinə yetirməyə borcludur.

# «Vergilər uşaqların gözü ilə» ənənəvi rəsm müsabiqəsi

**1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən 1 iyunun Uşaqların Beynəlxalq Müdafiə Günü kimi qeyd olunması qərara alınıb. Dünyanın əksər ölkələrində olduğu kimi, həmin gün ölkəmizdə də qeyd edilir. Hər il ölkəmizdə müxtəlif qurumlar və təşkilatlar tərəfindən Uşaqların Beynəlxalq Müdafiə Gününə həsr olunan tədbirlər həyata keçirilir.**





Artıq 14-cü ildir ki, Vergilər Nazirliyinin və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının təşkilatçılığı ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə «Vergilər uşaqların gözü ilə» adlı rəsm və inşa yazı müsabiqəsi keçirilir. 14-cü rəsm və inşa müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimində iştirak edən Uşaq-Gənclər Yaradıcılıq Sarayının direktoru Bədayə Ramazanova bildirib ki, hər il bu ərəfədə «Vergilər uşaqların gözü ilə» devizi altında təşkil edilən müsabiqədə 5-8, 9-12 və 13-17 yaş kateqoriyalarına aid məktəblilər iştirak edir və vergilər barədə aldıqları bilikləri kağız üzərinə köçürürlər. Qeyd edilib ki, builki müsabiqə aprel ayından start götürüb, 250-dən çox rəsm nümunəsi və inşalar münsiflər heyəti tərəfindən dəyərləndirilərək qaliblər müəyyən olunub.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Mahir Rəfiyev bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd vergilər haqqında anlayış və bilikləri gələcəyin vergi ödəyiciləri olan uşaqların başa düşəcəyi təsvirlər vasitəsilə çatdırmaqdan ibarətdir: «Hər il müsabiqəyə təqdim edilmiş rəsm əsərləri albom şəklində nəşr olunur və Vergilər Nazirliyinin qatıldığı sərgi və tədbirlərdə nümayiş etdirilir. Mükafata layiq görülmüş rəsm əsərlərinin çoxu hazırda nazirliyin inzibati binasının divarlarını bəzəyir və builki müsabiqəyə təqdim olunmuş əsərlərin ən yaxşılarından da bu məqsədlə istifadə ediləcəkdir».

Müsabiqəyə təqdim olunmuş əsərlərdə əks etdirilən vergilərlə bağlı süjetlər gənc nəsildə vergi biliklərinin və bütövlükdə vergi mədəniyyətinin formalaşmasına xidmət edir. Rəsm müsabiqəsi çərçivəsində asfalt üzərində rəsmlər də maraqla qarşılanıb.

Münsiflər heyətinin rəyinə görə, inşa nominasiyasında 1-ci yerə Məryəm Hüseynzadə, 2-ci yerə Həcər Məmmədova, 3-cü yerə Jalə Qurbanova; asfalt üzərində əks etdirilən rəsmlər üzrə isə 1-ci yerə Murad Bayramov, 2-ci yerə Nuray Hüseynli, 3-cü yerə Fərid Quliyev layiq görülüblər. 5-8 yaş kateqoriyası üzrə 1-ci yer Melisa Ağamalıyevaya, 2-ci yer Selcan Mustafayevaya, 3-cü yer Məryəm Şiriyevaya verilib.



Digər yaş kateqoriyaları üzrə qaliblər isə belə müəyyənləşib: 9-12 yaş kateqoriyası üzrə 1-ci yer Fidan Qurbanova, 2-ci yer İsa Kərimli, 3-cü yer Səbinə Məmmədova, 13-17 yaş kateqoriyası üzrə 1-ci yer Solmaz Hüseynova, 2-ci yer Cəmilə Seyidova, 3-cü yer Zəhra Məmmədova.

Qaliblərə diplom və hədiyyələr təqdim olunub.

Müsabiqə qalibləri səylərinin yüksək qiymətləndirildiyi üçün Vergilər Nazirliyinə və əməyi keçən hər kəsə təşəkkür ediblər, rəsmlərinin nazirliyinin inzibati binasının divarlarını bəzəyəcəyinə sevindiklərini dilə gətiriblər.

**AYTƏN**





Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# İanələrin vergiyə cəlb edilməsi

***Fiziki və hüquqi şəxslər tərəfindən qanunvericiliyə uyğun olaraq idman federasiyası formasında yaradılmış ictimai birliyə verilən ianələr mənfəət vergisinə cəlb edilirmi?***

Vergi Məcəlləsinin 13.2.27-ci maddəsinə əsasən, qeyri-kommersiya fəaliyyəti - məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsidir, əks halda bu fəaliyyət kommersiya fəaliyyəti sayılır.

Vergi Məcəlləsinin 106.1.2-ci maddəsinə görə, qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr mənfəət vergisindən azaddır.

Azərbaycan Respublikasının «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanununun 24-1.1-ci maddəsinə əsasən, ianə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında heç bir hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi (bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş saziş bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi) tərəfindən bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.

Həmin Qanunun 24-1.5-ci maddəsində qeyd edilmişdir ki, qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən (Azərbaycan Respublikasının Nazirlər Kabineti) müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Maliyyə Nazirliyi) təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.

Mülki Məcəllənin 43.6-cı maddəsinə uyğun olaraq, qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

Qeyd olunanlara əsasən ictimai birliyə fiziki və hüquqi şəxslər tərəfindən verilən ianələr birliyin nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikasında idmanın inkişafına istifadə edildiyi və daxil olan vəsaitlərin təyinatı üzrə xərcləndiyi müvafiq sənədlərlə təsdiq edildiyi halda həmin vəsaitlər mənfəət vergisinin məqsədləri üçün vergitutma obyekti sayılmır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya
**s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Vergi yoxlamaları: əsaslar və prosedurlar

## *Sahibkarlar necə yoxlanmalıdırlar*

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanına əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2015-ci il noyabrın 1-dən etibarən 2 il müddətinə dayandırılıb. Bu dövr ərzində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamaların aparılmasına icazə verilir. Bundan əlavə, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılıb, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə aşağı salınıb.

2016-cı ilin birinci rübündə yoxlamalar təxminən 500 dəfə azalıb. 2015-ci ilin birinci rübündə biznes sektorunda 20 min yoxlama həyata keçirildiyi halda, cari ilin ilk 3 ayında bu rəqəm 30-40 arasında olub.

Qeyd edək ki, Vergilər Nazirliyi də öz səlahiyyətləri çərçivəsində kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb. Ötən ilin 4 ayına nisbətən cari ilin müvafiq dövründə səyyar vergi yoxlamalarının sayı 45,1 faiz, kameral vergi yoxlamaları təxminən 2,5 dəfə, operativ nəzarət tədbirlərinin sayı isə 13 dəfə azaldılıb.

***Sahibkarlar bilməlidirlər ki...***

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin bəziləri dövlətin verdiyi bu imtiyazları tamamilə sərbəstlik kimi hesab edərək qanunla müəyyən edilmiş yoxlamaların aparılmasına da maneçilik yaratmağa cəhd göstərirlər. Onlar yoxlayıcı orqanın öz hüquq və vəzifələrini yerinə yetirməyə əsassız olaraq müdaxilə edir, hətta sahibi olduqları müəssisənin qapılarını bağlayıb səsküy yaradaraq dövlət məmurlarını şantaj etməkdən belə çəkinmirlər. Anlamaq istəmirlər ki, yoxlama, reyd, monitorinq, xronometraj, yaxud hansısa nəzarət tədbirləri sahibkarlıq fəaliyyətini məhdudlaşdırmağa deyil, dövlətin iqtisadi və sosial maraqlarının qorunmasına, iqtisadi təhlükəsizliyin və inkişafın təmin edilməsinə xidmət edir.

Təəssüf ki, sahibkarların böyük bir qismi hələ də yoxlamaların necə və hansı hallarda aparılması, dövlət orqanı nümayəndəsinin və özünün hüquqlarının nədən ibarət olması haqqında kifayət qədər məlumata malik deyil.

Bəs yoxlama və nəzarət tədbirləri necə həyata keçirilməlidir, bu sahədə dövlət orqanının nümayəndəsinin və sahibkarın hüquq və vəzifələri nədən ibarətdir?

***Yoxlamalar vahid məlumat reyestri üzrə aparılır***

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Zaur Qasımovun sözlərinə görə, dövlət sahibkarların hüquqlarının müdafiəsini təmin etmək məqsədilə son illərdə yoxlamaların əsaslı şəkildə təkmilləşdirilməsinə nail olub. Yoxlamaların vahid qaydalarının müəyyən edilməsi və sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması məqsədilə 2013-cü ildə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanun qəbul olunub. 2014-cü il martın 1-dən qüvvəyə minən qanuna əsasən, yoxlayıcı orqanlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə yoxlama tədbirlərinin növləri - araşdırmalar, müayinələr, monitorinqlər, müşahidələr, təftişlər, nəzarət tədbirləri, xronometrajlar, reydlər, baxışlar və s. müəyyən edilib.

Yoxlamalar «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri»ndə qeydə alınmaqla həyata keçirilir. Sahibkar nə vaxt yoxlanacağını öyrənmək üçün www.yoxlama.gov.az saytına sərbəst şəkildə daxil olmaqla, qeydiyyatdan keçdikdən sonra əldə etdiyi şifrəni daxil etməklə özü barədə təyin edilmiş plan üzrə yoxlamalar haqqında əvvəlcədən məlumat əldə edə bilər.

Yoxlamaların plan üzrə və plandankənar formalarda aparılması nəzərdə tutulub. Plan üzrə yoxlama həmin sahibkarlıq subyektinin maksimum son üç ildən artıq olmayan fəaliyyət dövrünü əhatə edə bilər. Plandankənar yoxlama isə yalnız həmin yoxlamanın keçirilməsinə əsas yaradan məsələləri əhatə etməlidir.

***Sahibkar hansı halda yoxlamadan imtina edə bilər?***

Plan üzrə yoxlama başlamazdan əvvəl yoxlayıcı xidməti vəsiqəsini, yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı sahibkara təqdim etməli, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat verməlidir. Həmin sənədlər və məlumatlar sahibkara təqdim edilmədikdə və ya yoxlamanın aparılması haqqında qərarda və yoxlamaların vahid məlumat reyestrindən çıxarışda göstərilən yoxlama müddətlərinə riayət edilmədikdə sahibkar yoxlayıcını yoxlamaya buraxmaqdan imtina edə bilər.

Əgər sahibkar sonuncu yoxlama nəticəsində aşkar edilmiş pozuntuların müəyyən olunmuş müddət ərzində aradan qaldırılmasına dair yoxlayıcı orqana məlumat verməzsə və ya məlumat yanlış olarsa, plandankənar yoxlamalar aparılır. Bununla bərabər, insanların həyat və ya sağlamlığına, ətraf mühitə, dövlətin iqtisadi və əmlak maraqlarına birbaşa təhlükənin olması barədə yoxlayıcı orqana konkret faktlara əsaslanan məlumatlar daxil olduğu halda da həmin yoxlama tədbiri seçilir. Sahibkar müvafiq icra orqanına plandankənar yoxlamanın aparılması barədə müraciət etdikdə də həmin tədbirlər həyata keçirilir.

***Yoxlama prosesinin şəffaflığı təmin edilir***

Bir sıra hallarda vergi ödəyiciləri öz vergi öhdəliklərini könüllü surətdə yerinə yetirmək istəmirlər. Buna görə də vergi orqanlarının apardıqları yoxlamalar risk meyarlarına əsaslanır, uçotu düzgün qurulmayan və dövriyyələrini gizlədən sahibkarlıq subyektlərində nəzarət tədbirlərinin aparılmasına qərar verilir. Vergi ödəyicisinin vergidən yayınıb-yayınmamasını müəyyən etmək üçün xronometraj metodu ilə müşahidələr aparılır.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin şöbə rəisi Elşən Hüseynov bildirir ki, xronometraj metodu istehsal həcmini və ya malın satış dövriyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən operativ vergi nəzarəti növüdür. Yəni vergi ödəyicilərinin istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədilə aparılan müşahidədir. Belə müşahidələr mütəmadi qaydada həyata keçirilir, satılmış malların, göstərilmiş xidmətlərin müqabilində çekin vurulmasına (və ya qəbzin yazılmasına), müştəriyə verilməsinə, çeklərdəki məbləğin ödənilmiş məbləğə uyğun olmasına nəzarət edilir ki, bu da uçotdan yayınma hallarının qarşısını almağa xidmət edir, sahibkarlıq subyektinin normal fəaliyyətinə heç bir manеə yaratmır.

Sahibkarların yoxlamalarla tanış olmaları üçün Vergilər Nazirliyinin internet saytında «Vergi yoxlamaları: əsaslar və prosedurlar» səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamenti, onların hüquqi əsasları barədə dolğun məlumatlar yerləşdirilib. Məqsəd yoxlanılan sahibkarların və yoxlayıcı orqanların hüquq və vəzifələrini, yoxlama zamanı tətbiq olunan prosedurlarını konkretləşdirməklə yoxlama prosesinin şəffaflığının təmin edilməsidir. Sahibkarlar bu səhifəyə daxil olmaqla öz təsərrüfat obyektlərində aparılan yoxlamaların predmeti, nəticələri haqqında lazımi informasiyaları əldə etmək imkanı qazanırlar.

**Elbrus CƏFƏRLİ**

## Dövlət sahibkarların hüquqlarının müdafiəsini təmin etmək məqsədilə son illərdə yoxlamaların əsaslı şəkildə təkmilləşdirilməsinə nail olub

# Aqrar sahənin inkişaf etdirilməsi məqsədilə...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunu imzalayıb.

Bundan sonra kənd təsərrüfatı torpaqlarını təyinatı üzrə istifadə etməyənlər 100 kvadratmetrinə görə 1 manat vergi ödəməli olacaqlar. 1 hektarın 10000 kvadratmetr olduğunu nəzərə alsaq, bu, 1 hektara 100 manat vergi ödəniləcəyi deməkdir.

Qeyd edək ki, ilk qanun layihəsində 100 kvadratmetrə görə 10 manat vergi nəzərdə tutulurdu (hektara 1000 manat). Lakin bu məbləğ ictimai narazılığa səbəb olduğundan, millət vəkilləri vergini 1 manat kimi müəyyən etdilər.

Məcəlləyə edilən dəyişiklikdə deyilir:

Bu Məcəllənin 206.1-1-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 1 manat müəyyən edilir.»;

1.6. aşağıdakı məzmunda 206.1-1-ci maddə əlavə edilsin:

«206.1-1. Müvafiq icra hakimiyyəti orqanının verdiyi arayışa əsasən, təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat müəyyən edilir. Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qayda və meyarlar əsasında müəyyən edilir».

Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar (müqavilə) əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə edilməsidir. Torpaqdan istifadə hüququ daimi, qısamüddətli və uzunmüddətli ola bilər. Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə, torpaqdan daimi istifadə hesab olunur. Torpaqdan müvəqqəti istifadə, qısamüddətli - on beş ilədək və uzunmüddətli - on beş ildən doxsan doqquz ilədək müəyyən edilə bilər.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlara görə torpaq vergisi hesablanmır, lakin belə torpaqlar digər şəxslərə istifadəyə verilərkən torpaq vergisinin vergitutma obyekti yaranır və torpaq vergisi onu istifadəyə götürən şəxslər tərəfindən ödənilir.

Kənd Təsərrüfatı Nazirliyinin sözügedən məsələ ilə bağlı qanunvericiliyə hazırladığı dəyişikliklərlə bağlı parlamentdə də müzakirələr aparılıb və yeni qanun layihəsi qəbul edilib. Bu barədə aprelin 18-də Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin iclasında çıxış edən millət



vəkili Vahid Əhmədov Vergi Məcəlləsinə edilən dəyişikliklərin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Bununla belə V.Əhmədov bu prosesə ciddi nəzarət etməyin vacib olduğunu da qeyd edib.

Millət vəkili Əli Məsimli isə bildirib ki, əgər vergilər artırılandan sonra istənilən nəticə əldə edilməzsə, kənd təsərrüfatına yararlı torpaqlardan təyinatına uyğun istifadə edilməsi üçün əlavə inzibati tədbirlər görülməlidir.

İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün 27 noyabr 2001-ci il tarixdə təsdiq edilmiş «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanun hələ də qüvvədə qalır və buna görə, dövlət büdcəmiz ildə milyonlarla vəsait itirir: «Düzdür, sözügedən güzəştin tətbiqi nəticəsində kənd təsərrüfatı məhsulları istehsalçılarının 2 milyard manatdan çox vəsaitə qənaət etdikləri bəllidir. Lakin nəzərə almaq vacibdir ki, həmin vəsait dövlət büdcəsindən kənarda qalıb. Ümumiyyətlə, kənd təsərrüfatı məhsulları istehsalçılarını torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad etmək faktiki olaraq, daha çox iri təsərrüfat sahiblərinin karına gəlməklə, fərdi və xırda torpaq sahiblərinə müəyyən səmərə versə də, dövlət büdcəsinin itirməsi ilə nəticələnib. Bununla belə, hökumət aqrar istehsala dəstək məqsədilə, bu siyasəti davam etdirmək niyyətindədir. Ancaq, istənilən güzəşt müvafiq nəticə verməlidir. Əgər, vergilərdən azad olma adekvat olaraq məhsul istehsalı həcminin artması ilə nəticələnmirsə, mütləq əlavə tədbirlər görülməlidir. Bu mənada, əkilməyən 1 ha (10 000 m2) torpaq sahəsinə görə 1000 manat vergi ödənilməli olduğuna dair mexanizmin tədbiqi vacib və olduqca zəruri addımdır. Bu, indiki şəraitdə kənd təsərrüfatının düzgün istiqamətdə inkişafı üçün tələb olunan bir siyasətdir. Belə ki, torpaq sahibi dövlətin ona əvəzsiz olaraq verdiyi bu istehsal vasitəsinə görə məsuliyyət daşıyır. Əgər o, bundan istifadə edirsə, deməli, məhsul götürür və müvafiq vergisini də yerli özünüidarəetmə orqanına ödəyir. Yox, əgər istifadəsiz qoyursa, buna görə, dövlət və qanun qarşısında cavabdeh sayılır».

**Fəxriyyə İKRAMQIZI**

# Nağd hesablaşmalar zamanı diqqət etməli olduğumuz məsələlər

Nağd ödənilmiş pulun əvəzində çekin, qəbzin tələb olunması vacibdir. Gündəlik həyatımızda da görürük ki, bu çeklər və qəbzlər olmadan aldığımız malı keyfiyyətinə, qiymətinə və s. səbəblərə görə geri qaytarmaq və onu həmin yerdən aldığımızı sübut etmək mümkün deyil. Bir çox obyektlərdə alıcılara çek əvəzinə sadəcə alınan malların siyahısı olan və «müştəri qəbzi» adlanan kağız parçası təqdim olunur. Bu kağızlarda isə qanunda nəzərdə tutulan məlumatlar olmur. İstehlakçıya təqdim olunan nəzarət-kassa aparatının çeklərində isə aşağıdakı məlumatlar əksini tapmalıdır:

- vergi ödəyicisinin adı;
- VÖEN-i;
- çekin vurulma tarixi və saatı;
- obyektin adı və yerləşdiyi ünvan;




- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- nəzarət-kassa aparatının markası və zavod nömrəsi;
- nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti).

Qəbz isə NKA tətbiq edilməli olmayan fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin nağd pul hesablaşmalarının aparılmasında istifadə etdiyi, maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini özündə əks etdirən, forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən xüsusi seriya və nömrəsi olan ilkin uçot sənədidir. Bəs bu qəbzləri kimlər istehlakçılara təqdim edə bilər?

Qeyd edək ki, nağd pul hesablaşmalarının aparılması ilə bağlı əməliyyatların qəbzlər vasitəsilə rəsmiləşdirilməsinə qanun çərçivəsində icazə verilir. Yəni nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilib-edilməməsi vergi ödəyicisinin həyata keçirdiyi fəaliyyət növündən asılıdır. Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində göstərilən fəaliyyət növləri ilə (məsələn, mehmanxana, hüquq, reklam, səhiyyə xidmətləri və s.), habelə işçilərin sayı iki nəfərdən çox olmamaqla bərbər və foto xidməti, ayaqqabı təmiri və bu kimi digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilməsi məcburi xarakter daşımır. Bu fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri nağd pul hesablaşmalarını qəbzlər vasitəsilə həyata keçirə bilərlər. Qəbz tətbiq edilən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicisi könüllü olaraq nağd hesablaşmaları NKA vasitəsilə apara bilər.

Qəbzlərdə aşağıdakı zəruri rekvizitlər əks etdirilməlidir:

- qəbzlərin sifarişçisi olan fiziki şəxsin adı, soyadı, atasının adı və VÖEN-i, hüquqi şəxsin isə adı və VÖEN-i;
- qəbzi çap edən şəxsin adı və VÖEN-i, bu blankları təkrar çapdan müdafiə etmək məqsədi ilə gizli nişanları (xüsusi emblemi, toru, qoloqramı, su nişanları, xüsusi gizli nişanlarından istifadə etməklə, blankların müxtəlif yerlərində şəxsin adı və VÖEN-i);
- qəbzin adı, seriya və nömrəsi;
- təsərrüfat əməliyyatlarının məzmununu və ölçülərini əks etdirən məlumat qrafaları.

Bu məlumatlar və rekvizitlər qəbzlərdə göstərilmədiyi halda, həmin ciddi hesabat blankı etibarsız sayılır. Nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl etmək və qəbzləri istehlakçıya, müştəriyə təqdim etmək vergi ödəyicilərinin vəzifələrinə aiddir və bu vəzifələrin lazımınca yerinə yetirilməməsi məsuliyyətə səbəb olur. Həmçinin malların, xidmətlərin təqdim edilməsi zamanı tərəflər arasında aparılan bütün əməliyyatların rəsmi olaraq qeydə alınması kölgə iqtisadiyyatının qarşısının alınmasına, vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına və nəticə etibarilə iqtisadiyyatın inkişafına, əhalinin rifah halının yaxşılaşmasına səbəb olur. Məhz buna görə də nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə maliyyə sanksiyaları bir qədər də sərtləşdirilmişdir. Belə ki, Vergi Məcəlləsinin 58.7-ci madəsinə görə vergi ödəyicisinə aşağıdakı cərimələr tətbiq edilir:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslərə 2000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat, Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslərə 4000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat, Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslərə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Qeyd edək ki, bu il yanvarın birindən qüvvəyə minən və Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən dəyişikliklərə əsasən vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər öz istəklərinə uyğun olaraq sadələşdirilmiş verginin ödəyicisi hesab oluna bilərlər.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Bakıda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Avropa İttifaqının birgə təşkilatçılığı ilə 3-cü Donor Əlaqələndirmə Görüşü keçirilib.

Afrika qitəsinin iqtisadi mərkəzi hesab edilən CAR-ın Cohannesburq şəhərində Azərbaycan-Cənubi Afrika Ticarət Palatasının təsis edilməsi münasibətilə təqdimat mərasimi keçirilib.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə davam etməkdə olan layihəyə əsasən, banklar vasitəsilə fermerlərə 400 milyon ABŞ dolları məbləğində vəsait ayrılacaq.

İyunun 13-də Roma şəhərində İqtisadi Əməkdaşlıq üzrə Azərbaycan-İtaliya Hökumətlərarası Komissiyanın növbəti iclası və Azərbaycan-İtaliya biznes forumu keçiriləcək.

İyulun 18-də Hindistanda keçiriləcək 57-ci Beynəlxalq Geyim Festivalına ölkəmizdə fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələrin nümayəndələri dəvət olunublar.

Asiya İnkişaf Bankının Direktorlar Şurası sentyabrda keçiriləcək toplantısında «Cənub qaz dəhlizi» və Xəzərin Azərbaycan sektorundakı nəhəng «Şahdəniz» qaz yatağının işlənməsinin ikinci mərhələsi layihələrinə kreditin ayrılması məsələsinə baxacaq.

# Sənaye texnoparkları üçün yeni güzəştlər

Azərbaycan Prezidenti İlham Əliyev «Gömrük tarifi haqqında» və «Sosial sığorta haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanunların tətbiq edilməsi haqqında sərəncam imzalayıb. Dəyişikliklərə əsasən, Azərbaycanda sənaye parkları rezidentləri tərəfindən malların idxalı 2016-cı il mayın 1-dən 5 il müddətinə gömrük rüsumlarından azad edilir. «Sosial sığorta haqqında» qanuna edilən dəyişikliklərə əsasən isə, texnoparkın rezidentləri 2016-cı il mayın 1-dən 5 il müddətinə mütləq sosial sığorta ödənişlərindən azad edilib. Eyni zamanda, «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanuna edilmiş dəyişikliyə əsasən, Qaradağ Sənaye Parkının rezidenti olan «Bakı Gəmiqayırma Zavodu» MMC 5 il müddətinə fəaliyyəti üçün lazım olan malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə vergilərdən azad edilib.



Mütəxəssislər dəyişikliklərin Azərbaycanda sənaye zonalarına yerli və xarici sərmayəçilərin marağının artmasına, investisiya qoyuluşlarının yüksəlməsinə səbəb olacağını bildirirlər. Vergi və gömrük məsələləri üzrə mütəxəssis Elşad Hacalıyevin sözlərinə görə, sənaye texnoparkları ilə bağlı qanunvericiliyə edilmiş yeni dəyişikliklər iqtisadiyyatın inkişafına töhfə verəcək, layihələrin miqyasının artmasına, bu sahəyə investorların cəlb olunmasına, yeni iş yerlərinin yaradılmasına və son nəticədə məşğul əhalinin sayının artımı fonunda insanların sosial rifahının yaxşılaşmasına zəmin yaradacaq. Yeni vergi-gömrük-sosial sığorta rejimi, həmçinin, texnoparklarda yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının güclənməsinə də imkan verəcək.

Sumqayıt texnoparkının direktor müavini Zaur Məmmədovun sözlərinə görə, texnoparklara edilən güzəştlər xarici rezidentlərin yeni birgə layihələrdə təmsil olunması üçün yaxşı imkanlar yaradır. Hazırda Azərbaycanda sənaye parkları rezidentlərinin ümumi sayı 12-yə çatır . Onlardan 7-si Sumqayıtda, 4-ü Balaxanıda və 1-i Qaradağ rayonunda fəaliyyət göstərir. Son bir ildə xarici ölkələrin iş adamları bu sahəyə sərmayə qoyuluşu ilə bağlı investisiya layihələrinin sayı da artmağa başlayıb. Türkiyə, Kanada, Cənubi Koreya, Çin, Avstriya, Almaniya, Malayziya, Fransa, İtaliya və Yaponiyadan olan şirkətlər tərəfindən 20-dən artıq investisiya təklifi daxil olub və onlar Sumqayıt Kimya Sənaye Parkının rezidenti olmaq niyyətlərini bildiriblər.

Yaxın 2 il ərzində Sumqayıt Sənaye Parkının ərazisində 35-40 şirkətin fəaliyyət göstərməsi mümkün olacaq. Texnoparka cəlb olunan şirkətlərin iştirakı ilə yeni istehsal sahələrinin yaradılması 2018-ci ilədək davam edəcək, nəticədə bu tədbirlər texnoparkın istehsal coğrafiyasının genişlənməsinə, sənayenin bütün sahələri üzrə məhsul istehsalına imkan verəcək, sənayeləşmənin şaxələnməsini təmin edəcək. Burada qablaşdırma sənayesi, tikinti, energetika, kənd təsərrüfatı üçün gübrə və kimya məhsulları, eləcə də avtomobil istehsalı sahələri prioritetlərdəndir. Nəzərdə tutulan layihələrin reallaşması sayəsində 2017-2018-ci illərdə texnoparkda 10-12 min yeni iş yerinin açılması proqnozlaşdırılır.

Fransanın «Thales Group», «Air Liquied», Almaniyanın «Vinnolit GmbH & Co.Kg», Yaponiyanın «İtochu Corporation» və digər nüfuzlu xarici şirkətlər Azərbaycanda sənaye zonalarının geniş fəaliyyəti üçün tətbiq olunan əlverişli investisiya və vergi rejiminin əhəmiyyətini nəzərə alaraq regionlarda sənaye texnoparkları yaratmaqda maraqlı olduqlarını bəyan ediblər. Yaponiyanın «Marubeni Corporation» şirkəti ilə imzalanmış müqaviləyə əsasən, Gəncə və Daşkəsəndə dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edəcək müasir sənaye parkı yaradılacaq.

Beynəlxalq maliyyə institutları da Azərbaycanda texnologiya parklarına investisiya qoymaqda qərarlıdırlar. Dünya Bankının (DB) nümayəndəsi Lora Tak bildirib ki, DB sənaye texnoparkları layihəsinin həyata keçirilməsində maddi və texniki dəstəyini göstərmək niyyətindədir. Bankın nümayəndə heyəti Balaxanı texnoparkında olduqdan sonra bu layihəyə 47 milyon dollar investisiya qoymaq barədə qərarını açıqlayıb. Layihəyə uyğun olaraq, Balaxanı poliqonunun beynəlxalq standartlara uyğun tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi üzrə milli strategiya sənədinin qısa, orta və uzunmüddətli tədbirlər planının hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur.

Beynəlxalq Maliyyə Korporasiyasının baş mütəxəssisi Sandra Sargent Azərbaycanda texnoparklara dəstək xarakterli müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinin xarici investorlar üçün maraq kəsb etdiyini bildirib. Korporasiya bu məqsədlə Gəncə və Mingəçevirdə sənaye texnoparkının yaradılması üçün qiymətləndirmə işləri aparmağı, texniki-iqtisadi hazırlıqlara başlamağı nəzərdə tutur.

**ELBRUS**

# Pensiyaların məbləği sosial ödənişlər əsasında müəyyənləşdiriləcək

Azərbaycanda sosial müdafiə sistemində islahatların sayı durmadan artır. Bu islahatların əhaliyə göstərilən xidmətlərin müasirləşdirilməsinə və keyfiyyətinin yüksəlməsinə, şəffaflığın təminatına təsiri böyükdür. İdarəçilik sisteminin, əhaliyə xidmətin informasiya və kommunikasiya texnologiyalarından istifadə kimi müasir prinsiplər əsasında təşkili sahəsində aparılan işlər uğurlu nəticələr verir.

«Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikasının qanununa görə, vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə onların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş maddi təminat hüququna zəmanət verməklə vahid dövlət pensiya sistemini müəyyən edir.

Nazirlər Kabineti pensiya inkişafı konsepsiyasına müvafiq olaraq qanun layihəsini hazırlayıb və yaxın vaxtlarda onu Prezident Administrasiyasına təqdim edəcək. Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisdə «2015-ci ilin dövlət büdcəsinin icrası haqqında» qanun layihəsinin müzakirəsində deyib. Onun sözlərinə görə, qanunun əsas məqsədi pensiyaların yığılmış pensiya kapitalı hesabına formalaşdırılmasıdır ki, hər bir kəs qazandığı vəsaitlərə müvafiq olaraq pensiya ala bilsin.

İqtisadçı ekspert Vüqar Bayramov məsələ ilə bağlı qəzetimizə bildirib ki, Azərbaycanda «Pensiya inkişaf konsepsiyası»na uyğun olaraq Nazirlər Kabinetinin təqdim etdiyi layihədə pensiyaların hesablanması və verilməsi məsələlərində səmərəliliyin, ədalətin möhkəmləndirilməsi nəzərdə tutulur: «Yeni qaydalara əsasən pensiyaların məbləği artıq ödənişlər əsasında müəyyənləşəcək. Demək, vətəndaş nə qədər çox sosial ödəniş edəcəksə, o qədər çox pensiya ala biləcək. Bunun üstünlüyü ondan ibarətdir ki, yeni qaydalar tətbiq edildikdən sonra vətəndaşlar əmək müqaviləsi bağlamaqda və əmək müqaviləsi ilə işləməkdə maraqlı olacaqlar. İşçi və işə götürən arasında daha sivil münasibət formalaşacaq. Eyni zamanda işçilər əmək haqlarının müqavilədə azaldılmasında və gizlədilməsində maraqlı olmayacaqlar. Onlar tələb edəcəklər ki, əmək haqları müqavilədə tam olaraq göstərilsin və sosial ödənişləri daha çox olsun».

V.Bayramov onu da qeyd etdi ki, yeni qaydalar pensiyaların baza hissəsinin ləğv edilməsini və yığım hissəsinə uyğun olaraq hesablanmasını nəzərdə tutur: «Gələcəkdə qaydalar təsdiq edildikdən sonra pensiyaların baza hissəsinin ləğv edilməsi yığımların 50% deyil, tam olaraq pensiyaçıya qaytarılmasına şərait yaradacaq. Əvvəlki qaydalarda yığımların 50 % cari xərclər, 50%-i isə sosial ödəniş edən şəxsin pensiyasının qaytarılması üçün saxlanılırdı. Amma təklif olunan qaydalara əsasən ödəniş edən şəxs pensiyaya çıxdıqdan sonra vəsaitini tam olaraq geri almaq imkanına malik olacaq. Bu ədalətin bərqərar edilməsi baxımından çox vacibdir. Pensiyaçı sosial ödənişləri ilə öz pensiya məbləğini formalaşdırır və daha çox pensiya almaq imkanı əldə edir».

**FƏXRİYYƏ**

# Azərbaycan on lider ölkə sırasında

## Gənclər arasında məşğulluq səviyyəsi artıb

Ölkəmizdə məşğulluq siyasətinin təkmilləşdirilməsi, onun icra mexanizminin səmərəliliyinin artırılması istiqamətində aparılan işlərdə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi önəm verilir. Bu məqsədlə mötəbər beynəlxalq qurumlarla, ayrı-ayrı inkişaf etmiş dövlətlərlə təcrübə mübadilələri aparılır. Bunun nəticəsidir ki, ölkəmiz mütərəqqi beynəlxalq yanaşmalara uyğun əmək siyasətinə malik ölkələrdən biri hesab edilir. Eyni zamanda Azərbaycan təcrübəsi də beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Artıq 2 ilə yaxındır ki, əmək və sosial müdafiə sistemi elektron texnologiyalar üzərində qurulub, əmək müqavilələrinin elektron qeydiyyat sistemi fəaliyyət göstərir. Beynəlxalq səviyyədə Azərbaycanın qabaqcıl təcrübəsi kimi yüksək dəyərləndirilən həmin sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasına, bu münasibətlərin dəqiq və əhatəli uçotunun aparılmasına, əmək bazarına çevik və obyektiv, səmərəli dövlət nəzarətini təmin etməyə imkan verir. Ölkənin bütün muzdla çalışan əhalisini əhatə edən əmək müqavilələrinin elektron qeydiyyat sistemi həmin işçilərin gələcəkdə layiqli pensiya təminatı üçün də etibarlı hüquqi əsas formalaşdırır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) məlumatına əsasən, ötən il ölkəmizdə istehsalatla əlaqəli bədbəxt hadisələrin sayı 2014-cü illə müqayisədə 33,7 faiz, bu hadisələr nəticəsində həyatını itirənlərin sayı 45,5 faiz, xəsarət alanların sayı isə 40 faiz azalıb. Dövlətin sosial siyasətinin əsas prioritetlərindən olan əmək hüquqlarının müdafiəsi, gənclərin səmərəli məşğulluğunun təmin olunması istiqamətində Dövlət Məşğulluq Xidməti (DMX) tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə aparılan məqsədyönlü işlər gənclər arasında məşğulluq səviyyəsinin getdikcə artmasına, gənc işçi qüvvəsinin ölkənin sosial-iqtisadi inkişafı proseslərində fəal iştirakının təmin olunmasına xidmət edir. Görülən işlərin nəticəsidir ki, Azərbaycan gənclər arasında işsizlik səviyyəsinin ən aşağı səviyyədə olduğu ölkələrdən biridir. Xidmət tərəfindən tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsi məqsədilə «Karyerada ilk addım» devizi altında aktiv məşğulluq tədbirləri həyata keçirilir. Xidmətin xətti ilə bu ilin yanvar-aprel aylarında münasib işlə təmin edilənlərin 35,6 faizini, peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunanların isə 60 faizə qədərini məhz gənclər təşkil edib. Ali təhsil müəssisələrində «Karyerada ilk addım» devizi altında keçirilən aktiv məşğulluq tədbirləri də gənclərin əmək bazarına inteqrasiyasına, onların işəgötürənlərlə ilkin əlaqələrinin və gələcək karyeralarının qurulmasına dəstək məqsədi daşıyır. Bu il dörd ayı ərzində Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə 5 ali təhsil müəssisəsində belə tədbirlər keçirilib. Tədbir zamanı tələbə və məzunlar əmək bazarındakı mövcud vəziyyət, onların ixtisaslarına olan tələbat barədə məlumat əldə edib, işəgötürənlərlə ilkin əlaqələr qurub, onlara şəxsi məlumatları əks olunan CV-lərini təqdim ediblər. İşəgötürənlər isə müasir tələblərə cavab verən ixtisaslı kadrların seçimini aparmaq imkanı qazanıblar. Bununla yanaşı, 12-si dövlət, 72-si özəl sektora aid 84 müəssisə tərəfindən 377 boş iş yeri də tələbə və məzunlara təklif olunub. Boş iş yerlərinə göndərişlər verilməklə bərabər, əlavə təhsil kurslarına cəlb olunmaq, boş vaxtları ərzində müvəqqəti xarakterli, mövsümi işlərdə çalışmaq istəyənlərin qeydiyyatı aparılıb.

Yeri gəlmişkən, qeyd edək ki, son illərdə Azərbaycan dünya miqyasında gənclərin məşğulluğu üzrə BMT-nin elan etdiyi on lider ölkədən biri olub. 2014-cü ilin ortalarında isə Beynəlxalq Əmək Təşkilatının rəsmi saytındakı «Gənclərin Məşğulluq Siyasətləri üzrə İnformasiya Sistemi» bölməsində Azərbaycan gənclərin səmərəli məşğulluğunun təmin olunması sahəsində dolğun hüquqi baza, səmərəli iş təcrübəsi barədə məlumatlar təqdim olunan ölkələr sırasına daxil edilib.

**AYTƏN**

# Aksizlər – Xüsusi istehlak vergisi

Bu günlərdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini, Azərbaycan Mili Elmlər Akademiyasının müxbir üzvü Akif Musayevin «Aksizlər - Xüsusi istehlak vergisi» adlı kitabı nəşr olunub. Kitabın məsləhətçisi vergilər naziri Fazil Məmmədov, rəyçiləri akademik Ziyad Səmədzadə, Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, redaktoru isə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin bölmə rəisi Zahid Rzayevdir.



«Azərbaycan Universiteti» nəşriyyatında işıq üzü görən monoqrafiyada aksizlərin yaranma tarixi, aksizli malların seçilmə xüsusiyyətləri, iqtisadi, ekoloji və təhlükəsizlik nöqteyinəzərindən mahiyyəti izah olunur. Nəşrdə aksiz vergisinin universal aksiz formaları olan satışdan və əlavə dəyər vergisindən fərqi, aksiz vergisi modelləri, büdcə gəlirlərinin formalaşmasında rolu tədqiq olunur, aksizin formalarının müqayisəli təhlili aparılır, aksizlərin inzibatçılığı və ona nəzarət, bu vergi növünün harmonizasiyası məsələləri araşdırılır.

Müəllif aksizlərin Azərbaycanın vergi sistemindəki əhəmiyyəti və xüsusiyyətlərini təhlil edir. Qeyd edir ki, hələ qədim dövrlərdən tətbiq edilən aksiz vergisi indi də öz fiskal mahiyyətini və təyinatını saxlayıb. Azərbaycanda 1992-ci ildən tətbiq edilən aksiz vergisi istehlak vergisi hesab edilən dövriyyədən vergini əvəz edib. Vergi Məcəlləsi qüvvəyə minənə qədər aksiz vergisi «Aksizlər haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənirdi və çoxlu sayda istehlak mallarına tətbiq edilirdi. Vergi Məcəlləsi qüvvəyə mindikdən sonra aksizli malların siyahısı nisbətən məhdudlaşdırılıb, hazırda bu siyahı və aksiz dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

Kitabda bildirilir ki, aksizlərdə ƏDV-də olduğu kimi əvəzləşdirilmə və ya büdcədən geri alınma mövcuddur. Bunun üçün vergi tutulan əməliyyatın dəyəri və büdcəyə çatası məbləğ düzgün göstərilməli, əvəzləşdirilməli və ya büdcədən geri alınmalı olan aksiz düzgün müəyyənləşdirilməli, aksiz tutulan əməliyyatın aparıldığı vaxt və malların təqdim edildiyi yer düzgün göstərilməlidir. Bu vergi növü üzrə qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirləri nəzərdə tutulur.

6 fəsil, 46 bölmə, 160 səhifədən ibarət olan kitab vergi sahəsində çalışan mütəxəssislər, vergi ixtisası üzrə təhsil alan tələbə və magistrlər, elmi işçilər üçün də faydalı mənbə hesab oluna bilər.

Akif Musayev bizimlə söhbətində bildirdi ki, bu nəşrin davamı olaraq hər bir vergi növü üzrə elmi-metodiki kitabların hazırlanması və nəşri nəzərdə tutulur. Həmin kitablar oxucularda vergi barədə məlumatların daha dolğun və təfərrüatlı şəkildə əldə edilməsinə səbəb olacaq.

**Prezident İlham Əliyev «Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və «ASAN Viza» sisteminin yaradılması haqqında» fərman imzalayıb. Sənədə əsasən, respublikamıza gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir İKT-nin köməyi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması nəzərdə tutulub. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə («ASAN Xidmət») elektron viza verilməsi üçün «ASAN Viza» sistemini yaratmaq və onun idarə olunmasını təmin etmək tapşırılıb.**

# «ASAN Viza» turizmin və biznesin inkişafına ciddi təkan verəcək

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov KİV-ə açıqlamasında bildirib ki, bütün vizaların alınması vahid portal vasitəsilə həyata keçiriləcək. Azərbaycana gəlmək istəyən şəxslər e-vizanı əldə etmək üçün «ASAN Viza» sistemi vasitəsilə zəruri məlumatları daxil edəcək, tələb olunan dövlət rüsumunu həmin sistemlə elektron qaydada ödəyəcəklər. Müvafiq qurum elektron vizanı üç iş günü müddətində müraciət etmiş şəxsin elektron ünvanına göndərəcək.

Son illər Azərbaycanın turizm potensialı, xarici vətəndaşların ölkəmizə marağı artmaqdadır. Məhz bu məqsədlə dövlət başçısı tərəfindən «Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və «ASAN Viza» sisteminin yaradılması» haqqında fərman imzalanıb. Yaxın günlərdə Xarici İşlər Nazirliyi elektron viza ala biləcək ölkələrin siyahısını müəyyənləşdirəcək və həmin ölkələrin vətəndaşları bu xidmətdən yararlanmaq əldə edəcəklər. Vizaların verilməsi prosesinə ən qısa müddətdə başlanılacaq.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard dövlət başçısının bu qərarını alqışlayıb və bildirib ki, fərman Avropadan Azərbaycana turist axınının çoxalmasına şərait yaradacaq, «ASAN Viza» bu sahədə prosedurların daha da sadələşdirilməsinə öz töhfəsini verəcək.

ASAN VIZA
online viza

**Yeni viza rejimi əcnəbi turistlərin Azərbaycana gəlmək üçün diplomatik korpusa getməsinə, sənədlər hazırlanmasına ehtiyacı aradan qaldıracaq**

Mütəxəssislər hesab edirlər ki, elektron viza iqtisadi, siyasi, sosial, hüquqi, humanitar sahələrdə əməkdaşlığın möhkəmlənməsi, eyni zamanda işgüzar əlaqələrin genişlənməsi və biznes nümayəndələrinin xarici ölkələrdəki tərəfdaşları ilə daha çevik partnyorluğunun qurulması üçün yaxşı imkanlar yaradır. Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əlimməmməd Nuriyevin sözlərinə görə, Azərbaycan hökuməti Avropa Birliyi ölkələri ilə inteqrasiyanı dərinləşdirərək ikitərəfli əlaqələrin inkişafına xidmət edən bir sıra mühüm sənədlər imzalayıb. İki il əvvəl tərəflər arasında viza rejiminin sadələşdirilməsinə dair saziş imzalanıb və bu sənəd Beynəlxalq Viza Məcəlləsinə uyğun olaraq, mövcud rejimin xeyli sadələşdirilməsinə hüquqi baza yaradıb. Bu, Azərbaycandan Avropaya və əks istiqamətə gedişgəlişin asanlaşmasına, bir sıra güzəştlərin tətbiqinə əlverişli imkanlar yaradır. Azərbaycanlı iş adamları e-vizanın köməyindən qarşılıqlı investisiyaların yatırılması və həcminin artırılması, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin icrasına başlanılması, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə layihələrin həyata keçirilməsi üçün yararlana bilərlər.

Mütəxəssisin sözlərinə görə, ölkəmizdə elektron viza sisteminin qurulması və tətbiqi ilə bağlı hüquqi-texniki baza yaradılıb və bu sistemin işə düşməsi üçün heç bir əngəl yoxdur. Dövlət başçısının müvafiq sərəncamına əsasən, viza rejiminin sadələşdirilməsi ilə bağlı texniki tədbirlərin həyata keçirilməsi işləri başa çatmaq üzrədir. Ölkəmizin dövlət sərhədkeçid məntəqələrində müasir informasiya texnologiyalarına əsaslanan idarəolunma sistemi qurulub, vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə şərait yaradan yüksək səviyyədə tədbirlərin görülməsi üçün infrastruktur mövcuddur.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun əməkdaşı Vidadi Quliyevin sözlərinə görə, e-viza qarşılıqlı ticarət əməliyyatlarının artmasına, yerli sahibkarların xarici bazarlara çıxışına imkanlar yaradır. Yeni viza sisteminin tətbiqi Azərbaycanda çalışmaq və investisiya qoymaq istəyən əcnəbi iş adamlarının ölkəyə gəlişini asanlaşdıracaq. Mövsümi xarakterli işlər, biznes, sərmayə axtarışları və digər sahələrə maraq göstərən xarici ölkə vətəndaşlarının bu müddətdə Azərbaycana böyük həcmdə pul sərf etməsi gözlənilir. Onların fəaliyyətini leqallaşdıran miqrasiya və sosial müdafiə xidməti orqanları Azərbaycan büdcəsinə vergi və rüsumların ödənilməsini təmin edəcəklər.

Azərbaycan Turizm Assosiasiyasının sədr müavini Müzəffər Ağakərimovun sözlərinə görə, yeni viza rejimi əcnəbi turistlərin Azərbaycana gəlmək üçün diplomatik korpusa getməsinə, sənədlər hazırlanmasına ehtiyacı aradan qaldıracaq. Ölkəmizə gəlmək istəyən şəxslər internet vasitəsilə elektron ərizə və digər sənədlərin formalarını göndərərək qısa müddətdə viza əldə edə biləcəklər. Turistlərin sayının çoxalması isə indiki dövrdə qeyri-neft sektorunun əsas sahələrindən sayılan turizmin inkişafı və ölkəmizə valyuta axınının artması baxımından mühüm əhəmiyyət kəsb edir.

**E.CƏFƏRLİ**

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 iyun - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram



## İtaliya hökumətinə «daşınmaz əmlak üçün müasir vergi» tətbiq etmək məsləhət görülüb

Beynəlxalq Valyuta Fondu (BVF) İtaliya üzrə hesabatını açıqlayıb. Hesabatda əmlak üçün vergiyə əlavə gəlirlər axtarmaq tövsiyə olunub. Qeyd edilib ki, hökumət iqtisadi inkişafa dəstək səyləri çərçivəsində son vaxtlar vergiləri azaltmaqla büdcədə ortamüddətli tarazlıq yaratmağa çalışır. 2014-cü ildə gəlir vergisinə aylıq 80 avro çıxılma tətbiq olundu, 2015-ci ildə regional mədən vergisi ödəyən işçi qüvvəsi üçün xərclər müəyyənləşdirildi. Bunlardan sonra isə 2016-cı ildə ilkin ev təsərrüfatları üçün yerli vergilər ləğv edildi. İtaliya hökuməti korporativ vergi dərəcəsini üzümüzə gələn il 27 faizdən 24 faizə endirməyi planlaşdırır. 2018-ci ildə isə fərdi gəlirlərdən tutulan vergi yükünün azaldılması gündəmdədir.

Bunlarla yanaşı, BVF onu da qeyd etmişdir ki, hökumətdən büdcə kəsirinin azaldılması üçün Avropa Komissiyası tərəfindən müəyyənləşdirilmiş tapşırıqlar çərçivəsində fiskal proqramların saxlanılması, eləcə də əməkhaqqından tutulan yüksək vergilərin əhəmiyyətli şəkildə azaldılması üçün imkan yaratmaq baxımından daha ciddi siyasi qərarlar tələb oluna bilər. BVF-nin hesabatında vergi xərclərinin rasionallaşdırılması hesabına vergi bazasının genişləndirilməsi, həmçinin «daşınmaz əmlak üçün müasir vergi» tətbiq etmək tövsiyələri də var.

## Avropa Komissiyasının vergidən yayınma ilə mübarizə barədə direktivi müzakirə edilib

Avropa Parlamentində mayın 24-də müzakirə edilmiş direktivin lehinə 20, əleyhinə 15 səs verilmiş, 21 deputat bitərəf qalmışdır. Müzakirələr zamanı qeyd edilmişdir ki, bu sənədin qəbul edilməsi faiz ödənişlərindən çıxılmaların məhdudlaşdırılmasına daha ciddi hədd qoymağı və üzv dövlətlərdən korporativ verginin minimal dərəcəsinin 15 faiz qəbul edilməsini tələb edir. Direktiv OECD-nin keçən il Avropa Parlamenti tərəfindən qəbul edilmiş «Vergi bazasının eroziyasının və gəlirlərin məhdudlaşdırılmasına dair fəaliyyət planı»nı əks etdirir. Bu direktivdə həmçinin vergi ödəyicilərinin daimi fəaliyyət yeri, vergi limanları, minimal iqtisadi məzmun, eləcə də transfert qiymətlər kimi şərtlərə ümumi təriflər verilmişdir.

Komissiyanın təklifinə görə, şirkətlərin gəlirlərindən 30 faizdən çox çıxıla bilməz. Lakin parlament müzakirəsində bu həddin 20 faizə endirilməsi təklif olunub. Hazırda Aİ sərhədlərindən kənarda hər hansı ölkədə vergiyə cəlb olunan gəlirlər Aİ-yə daxil olan ölkəyə köçürüldükdə bu, «xarici gəlir» adlandırılır və əksər hallarda ikiqat vergitutmaya yol verməmək üçün vergidən azad edilir. Komissiya təklif etmişdir ki, əgər xarici gəlir ölkədəki kursdan 40 faiz aşağı dərəcə ilə vergiyə cəlb olunarsa, azadolmadan imtina edilə bilər. Bununla belə, Avropa Parlamentinin deputatları 15 faizlik minimal dərəcə müəyyənləşdirməyi məsləhət görmüşlər. Bu o deməkdir ki, xarici gəlir Avropa Birliyindən kənarda aşağı dərəcə ilə vergiyə cəlb olunduqda, vergidən azadetmədən imtina ediləcək, lakin aradakı fərq ödəniləcək.

Bu müzakirədən sonra Avropa Birliyinə daxil olan ölkə nazirlərinin irəli sürülən təkliflərə baxılmaqla yekdil qərar verəcəkləri gözəlnilir.

## İşdir, Amerikada bəxtinizə «cekpot» düşsə, vergi öhdəliklərinizi unutmayın!

Bu yaxınlarda ABŞ-da Powerball milli lotereyası üzrə «cekpot» məbləği 415 milyon dollara çatmışdı. Lakin «cekpod»u udan şəxs həmin məbləği bütövlüklə birdəfəyə ala bilməz - uduşun tam məbləği 29 il müddətinə 30 hissəyə bölünərək verilir. Birdəfəlik ödəniş almaq üçünsə uduş sahibi məbləğin 35%-dən keçməlidir.

Uduşu hansı formada almaq barədə qərar verəndən sonra isə federal vergi öhdəlikləri ilə hesablaşmaq lazım gəlir. ABŞ-ın əksər ştatlarında lotereya uduşları vergiyə adi gəlir kimi cəlb olunur. «Cekpot» udmaqla siz ən yüksək federal vergi subyektinə çevrilirsiniz və gəlirinizdən 39,6% dərəcəsi ilə vergi ödəmək öhdəliyiniz yaranır.

Uduş sahibi ABŞ vətəndaşıdırsa, yaxud sosial sığorta nömrəsi olan rezidentdirsə, hökumət avtomatik şəkildə böyük mükafatın 25%-ni tutur. Uduş məbləğini birdəfəlik alan şəxslərdən isə 67,4 milyon dollar tutulur. Sosial sığorta nömrəsi olmayan rezidentlərdən ümumi məbləğin 28%-i, əcnəbilərdən isə 30%-i tutulur. Qalib federal verginin qalan 14,6%-lik hisssəsini (39,4 milyon dollar) növbəti maliyyə ilinin aprelində ödəməlidir.

Beləliklə, Amerikada bəxtiniz gətirib, 415 milyon dollar «cekpot» udsanız və həmin məbləği birdəfəlik almalı olsanız, bütün federal vergiləri ödəyəndən sonra sizə cəmi 160 milyon dollar çatacaq.

Onu da nəzərə almaq lazımdır ki, uduşların vergiyə cəlb olunması ştatdan-ştata fərqlidir. Ən şanslı qaliblər Florida, Nyu-Hempşir, Cənubi Dakota, Tennesa, Texas, Vaşinqton və ya Vaymonqdan olanlardır - bu ştatlarda gəlir vergisi tutulmur.




## İrlandiyada miras vergisi ödəyənlər getdikcə azalır

İrlandiyada təxminən 740 ailə miras vergisinə tətbiq olunan güzəştlərdən sui-istifadə etmişdir ki, bu da ölkə xəzinəsinə 52 milyon avroya başa gəlmişdir. 2013-cü illə müqayisədə miras vergisi ödəməyən ailələrin artımı 40 faiz təşkil etmişdir. Bu ailələrin böyük əksəriyyətini öz övladları üçün bahalı daşınmaz əmlak alan varlılar təşkil edir.

Mətbuatın yazdığına görə, son dərəcə bahalı daşınmaz əmlakların alğı-satqısı zamanı miras vergisinə aid vergi güzəştindən sui-istifadə olunur. Ölkənin vergi orqanları güzəştlərə çox inamsız yanaşırlar. Onların fikrincə, qanundakı boşluqdan faydalananların sayı ildən-ilə çoxalır. « Bu güzəşt həyat yoldaşından ayrılan insanları müdafiə etmək üçün qəbul edilmişdi, evin ailə üzvlərindən birinin adından digərinin adına keçməsi ilə bağlı məcburi vergi yükünün aradan qaldırılmasına xidmət etmək idi», - vergi mütəxəssisi Fiona O'Şi mövzunu şərh edərkən bildirmişdir. Hazırda İtaliya hökuməti öz valideynlərindən miras alan övladlar üçün vergitutma həddini 500 min avroya qədər artırmağı planlaşdırır. Həmçinin «sevimli qohum»» sxemi üzrə miras üçün də vergi ödəməmək mümkündür. Bu sxemə görə, hər hansı biznesi miras kimi alan qohum həmin biznes sahəsində ən azı 5 il işləmişdirsə, biznes onun adına vergi ödənilmədən keçirilir. Bu güzəştdən istifadə də doğma övlad üçün qəbul edilmiş vergi həddinə aid olunur. Qeyd edək ki, İrlandiyada miras vergisi əmlakın qiymətinin 33 faizini təşkil edir.

## Latın Amerikası ölkələri vergi qanunçuluğunu sərtləşdirirlər

BMT-nin İqtisadiyyat komissiyasının Latın Amerikası və Qəraib dənizi hövzəsi ölkələri üzrə hazırladığı son hesabatda bildirilir ki, bu regionun ölkələri qiymətqoyma sahəsində fırıldaqlar ucbatından 98 milyard dollardan artıq vəsait itirmişlər. Buna görə də son vaxtlar Latın Amerikası dövlətləri maliyyə sahəsində qanunçuluğun dəyişdirilməsinə və kompleks auditlərin aparılmasına şərait yaradan sənədlərə diqqəti əhəmiyyətli dərəcədə artırmışlar. Məsələn, keçən ilin sonunda Meksikada gəlir vergisi haqqında qanuna vergi ödəyicilərinin müəyyən qrupu üçün hər bir ölkə üzrə hesabata aidiyyəti olan əlavə sənədləri təqdim etmək öhdəlikləri barədə düzəlişlər daxil edilmişdir. Meksika hökuməti bu cür addımların atılmasını vergi bazasının eroziyasına qarşı OECD-nin təşəbbüsünün dəstəklənməsi ilə əlaqələndirmişdir. Keçən ilin sonlarında Çilinin Federal Vergi Xidməti də vergi ödəyicilərinə qarşı oxşar tələblər irəli sürmüşdür. İndi vergi informasiyasına şirkətin yenidən təşkili, maliyyə vasitələri və derivativ (əvvəlcədən alğı-satqı) müqavilələr, vergi ödənilməsinə qədər əldə olunmuş gəlirlər, beynəlxalq transaksiyalar barədə məlumatlar da daxil edilməlidir. Salvadorda və Ekvadorda da qiymətqoymanın hüquqi tənzimlənməsi ilə bağlı sərt addımlar atılmışdır: yeni müstəqil auditlər aparılmış, qanunçuluqda dəyişiklik edilmişdir.

krossvord



**Yuxarıdan aşağı:** 1.RF-nin Arxangelsk vilayətində çay; 2.Karib dənizində ada; 3.Memarlıq elementi; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Azərbaycanda nəşr olunan satirik karikatura jurnalı; 6.Çox qədim dövrlərin qalığı olan şey, hadisə; 9.Qusar rayonunda kənd; 13.Ölkəmizdə bölgəyə görə fərqlənən şirin xəmir məhsulu; 15.Müsəlman ölkələrinin bəzilərində yayılmış milli baş geyimi; 16.Su, içki və başqa mayelər tökmək üçün şüşədən, yaxud büllurdan hazırlanan dar, uzunboğaz qab; 17.XIX əsrdə yaşamış dünya şöhrətli Avstriya bəstəkarının soyadı. Vals musiqisinə gətirdiyi yeniliklərə görə tanınır və həmin dövrdə Avropada vals kralı hesab olunurdu; 18.Audio-video kaset və ya CD oxudan yüngül və yığcam cihaz; 20.«Bizim küçə» bədii filmində (1961) baş qəhrəman - Sara rolunu oynayan aktrisanın adı; 21.Ötən əsrin 90-cı illərində populyar olan oyun konsolu. **Soldan sağa:** 1.Mağaraların tavanında əmələ gələn konus şəklində əhəng, damla daş; 5.Üç ölkə ərazisindən axan çay; 7.Müxtəlif sənədləri, hüquqi aktları təsdiq etmək vəzifəsi daşıyan rəsmi şəxs; 8.Rusiya, Qazaxıstan ərazilərindən keçib Xəzər dənizinə tökülən çay. Fin və ya qədim türk dilində «aydın gecə» mənasını verir; 10.Azərbaycan rəssamının adı. Əsərləri bir sıra kitab və jurnallarda çap olunub. Bir çox sərgilərin və müsabiqələrin iştirakçısı, «Karikaturaçı Rəssamlar Birliyi»nin üzvüdür; 11.Avtomobil markası; 12.Bank tərəfindən alğı-satqısı həyata keçirilən qiymətli kağızların alış və ya satış kursu; 14.Azərbaycanlı bəstəkar, xalq artisti və əməkdar incəsənət xadiminin adı. Azərbaycanda ilk rok operettasının müəllifi; 19.Qiymətli nadir əşya, hal, xüsusiyyət, kitab, incəsənət əsəri; 21.Kazak qoşunlarında hərbi rütbə və vəzifə; 22.Orta əsr filosofu və ilahiyyatçısı, sxolastikanın sistemləşdiricisi, tomizmin banisinin adı; 23.Ölkəmizdə çay; 24.RF-nin Komi Respublikasında çay; 25.Xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün kilsə tərəfindən göndərilən şəxs.



*Bəzi müsəlman ölkələrində milli baş geyimi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Moskva; 2.Halogen; 3.Çanal; 4.Anket; 5.Tulup; 6.Süvari; 9.Azər; 13. «Aida»; 15.Monblan; 16.Şəfiqə *(Axundova)*; 17.Arnold *(Şvartsenegger)*; 18.Sfinks; 20.Əyani; 21.Mamuk (xan). **Soldan sağa:** 1.Mahaçqala; 5.Tüs; 7.Saloniki; 8.Alov; 10.Vagil; 11.Təzəpir; 12.Andar (xan); 14.Kreml; 19.Ələmdar; 21.Manaf *(Süleymanov)*; 22.İran; 23.Formalin; 24.Əmi; 25.Dodekanes.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

## idman

# Daha bir velosipedçimiz «Rio-2016»ya lisenziya qazanıb



Azərbaycanın şose velosipedi üzrə yığma komandasının üzvü Yelena Pavluxina bu ilin avqustunda Rio-de-Janeyroda keçiriləcək 31-ci Yay Olimpiya Oyunlarında iştirak hüququ əldə edib. Bununla bağlı Beynəlxalq Velosipedçilər İttifaqı (UCİ) tərəfindən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinə və Azərbaycan Velosiped İdmanı Federasiyasına təsdiq məktubu göndərilib. Yelena Pavluxina dörd illiyin zirvə yarışında ölkəmizi qadınlar arasında qrup yarışlarında təmsil edəcək.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, qadın velosipedçilər Yay Olimpiya Oyunları keçirilən il mayın 31-dək klub və yığma səviyyəsində yarışlarda iştirak etməklə Olimpiadaya lisenziya xalları toplayırlar. 2015 və 2016-cı illərdə Avropa və Asiyada bir sıra yarışlarda uğurla çıxış edən Yelena Pavluxina, ümumilikdə 149 lisenziya xalı toplayıb ki, bu da Rio-de-Janeyroda qrup yarışlarında mübarizə aparacaq 67 velosipedçi sırasına düşmək üçün yetərli olub.

Fəaliyyətinin əsas istiqamətini idmançılarımızın beynəlxalq yarışlarda, o cümlədən Yay Olimpiya Oyunlarında iştirakına yönəldən Azərbaycan Velosiped İdmanı Federasiyasının Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi ilə ölkəmizdə velosiped idmanının inkişafı ilə bağlı sıx əməkdaşlığı, işlərin düzgün qurulması və ən başlıcası isə velosipedçilərimizin gərgin əməyinin nəticəsində onların Olimpiadaya qazandıqları lisenziyaların sayı 4-ə çatıb. Maksim Averin və Yelena Pavluxina Braziliyada şose velosipedinin qrup yarışlarında, Olqa İsmayılova isə trek velosipedinin sprint və keyrin növlərində ölkəmizin idman şərəfini qorumaq hüququ əldə ediblər.

# Samir Cəbrayılovun daha bir uğuru

Ukraynada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı «Grand Prix of İSD» yarışı Azərbaycanın U-23 yığması və «Synergy Baku» kontinental komandasının üzvü Samir Cəbrayılov üçün uğurlu nəticə ilə yadda qalıb. Velosipedçimiz fəxri kürsünün ikinci pilləsinə qalxıb. 153 kilometr məsafəni Qazaxıstanın «Astana City» komandasının üzvü Nurbolat Kulimbekovla eyni vaxtda keçən S.Cəbrayılov rəqibindən azacıq geri qalıb və 2-ci nəticə göstərib - 3 saat, 25 dəqiqə, 24 saniyə. Finiş xəttini 3-cü və 4-cü keçənlər də «Astana City» komandasının üzvləri olub.




«Synergy Baku» bu yarışda U-23 yığma komandamızın 4 üzvü ilə təmsil olunub. Digər 3 velosipedçimizin nəticələrinə gəlincə, Elgün Əlizadə 8-ci, İsmayıl İlyasov 20-ci, Kənan Qəhrəmanlı 25-ci yeri tutub. Ümumilikdə isə yarışda 19 komandanın tərkibində 104 velosipedçi start xəttinə çıxıb ki, onlardan da 21-i mübarizəni yarımçıq dayandırıb.

# «Shamkir Chess 2016»nın qalibi Azərbaycan qrossmeysteri oldu

Azərbaycanlı şahmatçı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan ənənəvi «Shamkir Chess 2016» beynəlxalq turniri başa çatıb. Yarışın iyunun 4-də keçirilən sonuncu turunda Şəhriyar Məmmədyarov Aniş Qiri (Hollandiya) ilə qarşılaşıb. Gərgin keçən görüşdə rəqibini məğlub edən Azərbaycan şahmatçısı turnirin qalibi adını qazanıb.

Doqquz gün davam edən mübarizədə həmyerlimiz Şəhriyar Məmmədyarov və İtaliya təmsilçisi Fabiano Karuana hərəyə 6 xal toplayaraq birinci-ikinci yerləri bölüşüblər. Birinci yerin qalibini müəyyənləşdirmək üçün keçirilən tay-breykdə qalib gələn Şəhriyar Məmmədyarov turnirin qalibi adını qazanıb. Sonuncu turda Azərbaycanın dörd təmsilçisindən üçü qalib gəlib. Eltac Səfərli Hindistan təmsilçisi Pentala Harikrişnanı, Rauf Məmmədov çinli Hou Yifanı məğlub edib. Yalnız Teymur Rəcəbov rəqibi Pavel Elyanov (Ukrayna) ilə xalları yarı bölüb. Digər qarşılaşmada isə rusiyalı Sergey Karyakin italiyalı Fabiano Krauana (ABŞ) ilə heç-heçə oynayıb.

Beləliklə, turnirin yekununa əsasən, Şəhriyar Məmmədyarov, Fabiano Karuana hərəyə 6 xal, Aniş Qirin 5,5, Sergey Karyakin 5, Rauf Məmmədov isə 4,5 xal qazanıb. Üç şahmatçı - Teymur Rəcəbov, Eltac Səfərli və Pentala Harikrişn aktivinə 4 xal yazdırıb. Pavel Elyanov 3,5, Hou Yifan isə 2,5 xal toplayıb.

Qeyd edək ki, «Shamkir Chess 2016» turniri mərhum şahmatçı Vüqar Həşimovun xatirəsinə həsr olunan sayca üçüncü turnirdir. Bundan əvvəlki hər iki turnirin qalibi norveçli dünya çempionu Maqnus Karlsen olmuşdu.

# Boks dünyasının əfsanəsi vəfat etdi

Dünya şöhrətli boksçu Məhəmməd Əli 74 yaşında dünyasını dəyişib. Bir neçə gün əvvəl nəfəs çatışmazlığı problemi ilə Arizonadakı xəstəxanalardan birinə yerləşdirilən əfsanəvi idmançı otuz ilə yaxın idi ki, Parkinson xəstəliyindən əziyyət çəkirdi.

Qeyd edək ki, əsl adı Kassius Kley olan boksçu 22 yaşında İslamı qəbul edib və özünə Məhəmməd Əli adını götürüb. Peşəkar karyerasına 1960-cı ildə başlamış Məhəmməd Əli iki dəfə - 1964 və 1974-cü illərdə WBA versiyası üzrə dünya çempionu olub. Karyerası ərzində keçirdiyi 61 görüşdən 56-da qələbə qazanıb və yalnız 5 görüşdə məğlub olub.



## mozaika

# Printerdə çap edilmiş... ofis binası

nanotexnologiya

Dubayda 3D-printerlərin köməyi ilə binaların inşası ilə bağlı strategiya haqqında məlumat verilib. Qeyd olunub ki, hakimiyyət tərəfindən 2030-cu ilədək Dubayda bütün binaların 25 faizinin çap edilməsi planlaşdırılır.

Şəhərin mərkəzində çap edilmiş «Gələcəyin ofisi»nin açılışı bu istiqamətdə ilk addım olub.

Detalların çap prosesinə və 250 kvadratmetr sahəyə malik birmərtəbəli binanın qurulmasına 17 gün və 140 min dollar sərf edilib. Eyni binanın ənənəvi metodlarla tikintisi üçün isə iki dəfə çox vəsait tələb olunur.

Binanın tikintisi üçün uzunluğu 36 metr, eni 12 metr olan iki mərtəbə hündürlüyündə printerdən istifadə edilib. Detallar çap olunduqdan sonra tikinti



yerinə gətirilib və 17 işçidən ibarət komanda tərəfindən yığılıb. Çap edilmiş ofis elektrik enerjisi, su boruları, telekommunikasiya avadanlıqları və havanın kondisiyalaşdırılması sistemi ilə təchiz edilib.

# İstifadəyə yararlı çimərliklərin adları açıqlandı

ekologiya

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi Xəzər dənizinin Azərbaycan Respublikasına aid sahil zolağında, çimərlik zonalarında və mühüm rekreasiya əhəmiyyətli qumsallıqlarda mütəmadi olaraq ekoloji vəziyyətin monitorinqini keçirir.

Qeyd edək ki, Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı qəsəbələrinin sahil zolağında və «Amburan» çimərliyi ərazisində, eləcə də Novxanı və Corat bağlarının sahilboyu ərazilərində beynəlxalq standartlara cavab verən 17 ədəd modul tipli çirkab sutəmizləyici qurğu quraşdırılıb. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, may ayında Xəzər dənizinin sahilində təmizləyici qurğuların quraşdırıldığı ərazilərdə, eləcə də digər çimərlik sahələrində aparılan mikrobioloji təhlillərin nəticələri məlum olub. Abşeron yarımadasının sahil zolağında modul tipli təmizləyici qurğular quraşdırılmamışdan əvvəl dənizdən götürülən su nümunələri üzərində aparılan təhlillər zamanı mikrobioloji baxımdan bağırsaq çöpü bakteriyalarının və şərti patogen E.coli-nin miqdarı normadan dəfələrlə artıq təyin edilib. Lakin nazirlik tərəfindən modul tipli təmizləyici qurğular quraşdırıldıqdan sonra həmin ərazilərdə mütəmadi keçirilən monitorinqlər nəticəsində çirklilik dərəcəsinin tədricən azalması qeydə alınıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən birgə keçirilən monitorinq zamanı dənizdən götürülən su nümunələri üzərində aparılan laborator təhlillərin nəticələri həmin sahələrdə bağırsaq çöplərinin və şərti patogen E.coli-nin miqdarının minimum həddə çatmasını təsdiq edir. Son illər ərzində qeyd olunan sahələrdə bağırsaq çöplərinin miqdarı norma həddinə çatıb.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli təmizləyici qurğular quraşdırılmış qəsəbələrin sahil zolağında aparılan son tədqiqatların nəticələri bunu deməyə əsas verir ki, qeyd olunan qəsəbələrin sahil zolağındakı çimərlik sahələri (Sumqayıt, Qaradağ rayonunun «Sahil» və Səbail rayonunun «Şıx» çimərliklərindən başqa) yay mövsümü ilə əlaqədar çimərlik kimi istifadəyə yararlıdır.

# Xarici dil bilməyənlər üçün...

texnologiya

ABŞ-da bir şirkət əcnəbi vətəndaşların bir-birlərini başa düşmələri üçün səsli tərcümə edən qulaqcıq istehsal edib. Xarici dil bilməyənlər üçün hazırlanan ağıllı qulaqcıq fərqli dillərdə danışan insanların əlaqə saxlamalarını asanlaşdırır.

İki il əvvəl fransız bir qadınla tanış olduğu zaman dil problemi yaşayan Endrü Oçoa tərəfindən hazırlanan cihaz «The Pilot» adlandırılıb.

Cihazdan ilk olaraq ingiliscə, almanca, fransızca və italyanca tərcümələrdən istifadə ediləcək. Bir müddət sonra isə digər dillərin əlavə olunması gözlənilir.

Hazırda 299 dollar olan cihazın qiymətinin gələcəkdə dəyişə biləcəyi bildirilir.

Oktyabr ayında təqdim ediləcək cihaz 2017-ci ildə satışa çıxarılacaq.




# Aspirinin mütəmadi qəbulu...

araşdırma

Avstraliya alimləri aspirin preparatının insan orqanizminə təsirini araşdırıblar. Mütəxəssislər tədqiqatlar üçün mütəmadi aspirin qəbul edən bir neçə min nəfərdən məlumat toplayıblar.

Alimlər preparatın müntəzəm qəbulunun insanın tam korluğuna gətirib çıxardığını aşkarlayıblar. Mütəxəssislər müəyyən ediblər ki, uzun müddət ərzində müntəzəm olaraq aspirin qəbul edən insanda makulodistrofiyanın yaranma ehtimalı artır. Bu xəstəlik zamanı hər iki gözün torlu qişası zədələnir. Bu isə öz növbəsində görmənin itirilməsi ilə nəticələnir.

Tədqiqatlarda 15 il ərzində müxtəlif adamlar iştirak ediblər. Eksperiment iştirakçıları iki qrupa bölünüb. Birinci qrupun nümayəndələri həkimlərin təyin etdiyi qədər, yəni həftədə bir dəfə aspirin qəbul ediblər. İkinci qrup isə daha çox preparat qəbul edib. Mütəxəssislər 15 il ərzində dörd dəfə onların görmə qabiliyyətini yoxlayıblar. İkinci qrupun nümayəndələrinin on faizində makulodistrofiya yaranıb. Ona görə də mütəxəssislər aspirinin qəbulu zamanı ehtiyatlı olmağı məsləhət görürlər.

**Müdriklər deyib ki...**

*«İstedad alçalmaq üçün deyil, yüksəlmək üçündür».*

*Jan Jak Russo (1712-1778)*

